RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 225 (8248) CÜMƏ, 11 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin növbəti beynəlxalq qələbəsi

## Prezidentin yeni islahatlar kursu qlobal miqyasda yenə də ən yaxşı nümunələrdən biri kimi təqdim edildi

**Azərbaycanda ildən-ilə daha geniş miqyas alan iqtisadi islahatlara, milyonların rifahına xidmət edən sosial paketlərə daha bir beynəlxalq qiymət verildi. Dünya İqtisadi Forumunun nəşr etdiyi "Qlobal Rəqabətlilik İndeksi - 2019"da Azərbaycan iqtisadiyyatı 11 pillə irəliləyərək 141 ölkə içərisində 62,7 balla 58-ci yerdə qərarlaşdı. Ölkəmiz 12 indikatordan 8-i - "institutlar", "infrastruktur", "makroiqtisadi sabitlik", "bacarıqlar", "əmtəə bazarı", "əmək bazarı", "biznesin dinamikliyi" və "innovasiya" üzrə ötən ilə nisbətən irəliləyib.**

### 141 ölkə arasında ən böyük yüksəliş balı

"Qlobal Rəqabətlilik İndeksi" beynəlxalq təşkilatlar, investor və sahibkarlar, müstəqil beyin mərkəzləri tərəfindən istinad mənbəyi kimi istifadə olunur. Son hesabata əsasən Azərbaycan 141 ölkə arasında ən böyük yüksəliş balı (11 bal) əldə edib. Ölkəmiz bu nəticə ilə Cənubi Qafqaz dövlətləri arasında lider, MDB ölkələri arasında isə ilk üçlükdədir.

Xatırladaq ki, Dünya İqtisadi Forumunun ötənilki Qlobal Rəqabətlilik Hesabatında da Azərbaycan müxtəlif indekslərdə yüksəlmişdi. Tamamilə yeni metodologiya əsasında hazırlanan hesabatda ölkəmiz dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu dövlət kimi göstərilmişdi. Həmçinin Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəlmişdi.

Yeni reytinqə əsasən, Ermənistan 61,3 bal ilə siyahıda 69-cu, Gürcüstan 60,6 balla 74-cü pillədə qərarlaşıb. 141 ölkədən ibarət reytinq siyahısının beşliyinə ilk yerdə Sinqapur olmaqla ABŞ, Honkonq, Niderland və İsveçrə daxildir.

### İqtisadi islahatlara verilən beynəlxalq qiymət

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizdən çoxu məhz Azərbaycanın payına düşür. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında qabaqcıl yerlərdən birini tutur. Fərəhli haldır ki, bu reallıqlar yalnız yerli mütəxəssislər tərəfindən deyil, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunur. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirirlər.

Dünya İqtisadi Forumunun son hesabatı da Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatların nəticələrinin daha bir beynəlxalq platformada əks olunmasıdır desək, yanılmarıq. Bu, cənab İlham Əliyevin məqsədyönlü və dərin iqtisadi islahatlarına verilən beynəlxalq qiymət olmaqla bərabər reallığa çevrilən yeniliklərin dünyanın ən nüfuzlu iqtisadi qurumlarının diqqətindən yayınmamasının əyani təzahürüdür. Yəni ölkəmizin iqtisadi sahədə qazandığı nailiyyətlər, eləcə də həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindədir.

Göründüyü kimi, Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatların əhəmiyyəti son illər dünyada iqtisadi artım sürətinin azalması fonunda daha da artmaqdadır.

*Ardı 4-cü səh.*

# Regionların sosial-iqtisadi simasını dəyişən proqramlar

Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sayəsində regionların sosial-iqtisadi inkişafında mühüm dəyişikliklər baş verib. Aparılan uğurlu siyasət nəticəsində bölgələr sosial-iqtisadi baxımdan böyük inkişaf yolu keçib. Dövlət proqramlarının icrası regionlarda minlərlə kiçik, orta və iri istehsal və xidmət sahələrinin fəaliyyət göstərməsinə imkan yaradıb. Nəticədə məhsul istehsalında bölgələrin payı ildən-ilə artmaqda davam edir.

2004-cü ildən regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən dövlət proqramları uğurla icra edilib, cari ildə növbəti proqram təsdiq olunub. Bu proqramların başlıca məqsədi bölgələrdə iqtisadi inkişafla yanaşı, sosial problemlərin həllidir. Dövlət proqramlarının qəbulu sayəsində minlərlə istehsal və xidmət obyektləri ilə yanaşı, mühüm sosial obyektlər də tikilərək həmin ərazilərdə yaşayan sakinlərin ixtiyarına verilib. Bunlar təhsil, səhiyyə, rabitə, idman və digər sahələri əhatə edir. Eyni zamanda, bölgələrdə kəndarası avtomobil yolları, qaz, işıq xətləri yenidən çəkilib və ya əsaslı təmir olunub. Görülən işlərin sayəsində bölgələrdə yaşayan əhali həmin sosial xidmətlərdən rahat şəkildə istifadə edə bilir.

Prezident İlham Əliyev bu il yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən proqramların əhəmiyyətini vurğulayaraq demişdir: "Keçən il regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatdı. Bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri var. Bu il biz regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Demək olar ki, proqramın əsas hissəsi hazırdır".

Son 15 ildə 15 min kilometr yol çəkilib ki, bunun çox hissəsi kənd yolları və regionlardakı şəhərlərarası avtomobil yollarıdır. Həmin proses indi də davam edir. Təkcə cari ilin 6 ayında təxminən 400 kilometrə yaxın avtomobil yolu çəkilib. Qazlaşdırma 95 faizi keçib.

Regionlarda yaradılan 9 sənaye park və məhəllələri ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verir. İndiyədək sənaye parkları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq investisiya kimi qoyulub.



*Ardı 4-cü səh.*

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfəri

# Aşqabad Beynəlxalq Hava limanında qarşılanma



Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, Aşqabad Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi MDB İcraiyyə Komitəsinin sədri-icra katibi aparatının rəhbəri Sergey Burutin, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Esenmurad Orazgeldiyev və digər yüksək vəzifəli şəxslər qarşıladılar.

# Dövlət başçılarının görüşü əməkdaşlığın möhkəmlənməsində böyük əhəmiyyət kəsb edir





Oktyabrın 10-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev, Prezident Qurbanqulu Berdiməhəmmədov və MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedev birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyevin və Prezident Qurbanqulu Berdiməhəmmədovun görüşü oldu.

**Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- İlham Heydər oğlu, icazə verin Sizi Türkmənistanda, Aşqabadda salamlayım və bizim dəvətimizi qəbul edib MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün gəldiyinizə görə Sizə dərin təşəkkürümü bildirim. Düşünürəm ki, xalqlarımızın rifahı naminə tərəfdaşlığın səmərəliliyini artırmaq üçün yaxşı imkanımız olacaq. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz!

**Prezident İlham ƏLİYEV** dedi:

- Sağ olun, hörmətli Qurbanqulu Məlikquluyeviç. Dəvət üçün sağ olun. Göstərilən qonaqpərvərliyə görə sağ olun. Qardaş Türkmənistan torpağına gəlməyə həmişə şadıq. Mənim keçənilki səfərimi, sizinlə görüşümü və imzaladığımız sənədləri xatırlayıram. Düşünürəm ki, o vaxt biz rekord göstərdik, 20-dən çox sənəd imzaladıq. Bu, iki qonşu ölkə arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir. Əlbəttə, MDB dövlət başçılarının sabahkı zirvə görüşü çoxtərəfli əməkdaşlığın daha da möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu mühüm beynəlxalq tədbirin gözəl təşkil edilməsi münasibətilə Sizi təbrik etmək, Sizə, qardaş Türkmənistan xalqına ən xoş arzularımı bildirmək, yeni zəfərlər, qələbələr diləmək istərdim.

**Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV:**

- Sağ olun, İlham Heydər oğlu. Mən, həmçinin Xəzəryanı ölkələrin Birinci İqtisadi Forumuna verdiyiniz dəstəyə və onun işində fəal iştirak etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Siz bilirsiniz ki, forum sərgi ilə də müşayiət olundu. Sizin ölkənizin demək olar ki, hamının diqqətini cəlb edən yaxşı stendi var idi. Siz bu forumun keçirilməsində də böyük rol oynamısınız. Ona görə, icazə verin bu həssas diqqətə və yaxşı iştiraka görə Sizə təşəkkürümü bildirim. Bu, bizim ortaq təşəbbüsümüz idi, ümumiyyətlə, ideya genişdir. Sizə açıq deməliyəm, orada iki ölkə fəal iştirak edib - Türkmənistan və Azərbaycan. Əsas diqqət məhz tranzit-nəqliyyat dəhlizləri məsələlərinə ayrılmışdı. Beləliklə, icazə verin bir daha Sizə təşəkkürümü bildirim.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun.

# Moldova bizə yaxın, dost dövlətdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İqor Dodonu salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- İqor Nikolayeviç, Sizi görməyimə şadam. Bizim ikitərəfli gündəliyimizə dair fikir mübadiləsi üçün yaxşı imkan yaranıb. Mən bizim görüşlərimizi, o cümlədən Bakıdakı görüşümüzü xatırlayıram. O vaxt biz ikitərəfli əməkdaşlığın geniş spektrini müzakirə etdik, münasibətlərimizin inkişafına ciddi təkan verdik. Sıx qarşılıqlı fəaliyyətin davam edəcəyinə ümid bəsləyirik. Bizim fəal əməkdaşlıq edə biləcəyimiz mövzular, sahələr çoxdur. Əsas odur ki, ölkələrimiz arasında dostluq münasibətləri həm ticari-iqtisadi sahədə, həm investisiya sferasında və bütün başqa sahələrdə qarşılıqlı fəaliyyəti inkişaf etdirmək üçün yaxşı bazadır. Moldova bizə yaxın, dost dövlətdir. Düşünürəm ki, bugünkü fikir mübadiləsi də faydalı olacaq. Zənnimcə, əlaqələrimizin inkişafına yeni təkan verəcəyik.



**Prezident İqor DODON** dedi:

- Hörmətli İlham Heydər oğlu, hörmətli dostlar. Əvvələn, bizim ikitərəfli münasibətlərimiz barədə Sizinlə yenidən fikir mübadiləsi aparmaq imkanına görə çox şadam. Bu ilin mart ayında Qlobal Forumda iştirak etməyimi xatırlayıram. Mən bu forumda artıq iki dəfə iştirak etmişəm və gələn il də iştirak etməyi planlaşdırıram. Qeyd etmək istəyirəm ki, bütün istiqamətlər üzrə işlərimiz yaxşı gedir. Sonuncu dəfə Bakıda Sizinlə söhbət zamanı mən demişdim ki, yaxın vaxtlarda Hökumətlərarası Komissiyanın tərkibi yenilənəcək. Dünən Moldova hökuməti İqtisadiyyat nazirini Moldova tərəfdən Hökumətlərarası Komissiyanın həmsədri təsdiq edib. Buna görə ümid edirəm ki, yaxın vaxtlarda Hökumətlərarası Komissiyanın iclası keçiriləcək. Sonuncu iclas 2012-ci ildə olub. Yəni, artıq 7 il keçib və bu müddətdə komissiya işləməyib.

Bir neçə həftə bundan əvvəl mən Sizə rəsmi dəvət məktubu göndərmişəm. Bu gün biz Moldova Respublikasına Sizin rəsmi səfərinizin mümkünlüyünü və hökumətlərarası komissiyanın iclasa hazırlıq məqsədilə həmsədrlərin görüşünün Kişineuda keçirilməsini müzakirə edəcəyik.

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm. Çox sağ olun.

# Azərbaycanın Avropa ilə Asiyanı birləşdirmək planları uğurla həyata keçirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi yenidən görməyimə çox şadam. Mən bizim Vyanadakı görüşümüzü xatırlayıram, çox səmərəli və çox ümidverici idi. Ümidvaram ki, Azərbaycana səfəriniz çox uğurlu olacaq, biz sıx əməkdaşlığımızı davam etdirəcəyik. Mən cənab Prezidentlə, Baş Nazirlə görüşümü xatırlayıram. Bildiyiniz kimi, çox səmimi və mehriban görüş idi. Düşünürəm ki, bu, çox mühüm şəxsi təmas idi. Biz bir daha ölkələrimiz arasındakı əməkdaşlığa verdiyimiz böyük əhəmiyyəti və tərəfdaşlığı genişləndirməyə hazır olduğumuzu qeyd etdik.

Siz də bildiyiniz kimi, ölkənizdən olan bir çox şirkətlər müxtəlif sahələrdə bizim tərəfdaşlarımızdır. Mənim Baş Nazirə dediyim kimi, onlar Azərbaycandakı tikinti layihələrində mühüm rol oynayıblar. Onlar yeni memarlıq üslubu baxımından, eləcə də infrastruktur sahəsində çox yaradıcıdırlar. Mən, həmçinin şadam ki, hazırda biz sizin məsul olduğunuz nəqliyyat sektorunda əməkdaşlığın fəal mərhələsindəyik və bizim hazırda Avropa ilə Asiyanı birləşdirmək planlarımız həyata keçirilir. Biz bu istiqamətdə yaxşı nəticələrə, yaxşı irəliləyişə nail olmuşuq. "Şərq-Qərb" dəhlizi fəaliyyət göstərir. Biz Çindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik və sizin burada Azərbaycanda infrastrukturla bağlı gördüyünüz bütün işlər hazırda iqtisadi tərəfdaşlıq və birlik işinə xidmət edir.

Bildiyiniz kimi, Azərbaycan nəqliyyat sektoruna böyük həcmdə investisiya yatırıb. Altı beynəlxalq hava limanı, müasir dəmir yolu sistemi, yeni magistral yollar, Xəzər dənizində ən böyük dəniz limanı, əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, "Şimal-Cənub nəqliyyat dəhlizi" və həmçinin bu il biz artıq Şimaldan Qərb istiqamətində gedən yükləri qəbul etməyə başlamışıq. Beləliklə, indi söhbət "Şimal-Qərb" dəhlizindən gedir. Azərbaycan bu layihədə çox mühüm rol oynayır, çünki biz "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizlərində iştirak edirik. Nəqliyyat sektoru gələcək iqtisadi inkişafın hərəkətverici qüvvəsi olacaq sahələrdən birinə çevrilir. Mən bilirəm ki, bizim dəmir yolları qurumumuz avstriyalı həmkarları ilə yaxşı təmaslar qurub. Bunlar çox ümidverici addımlardır. Əminəm ki, Azərbaycana səfəriniz ərzində bütün bu məsələlər geniş şəkildə müzakirə ediləcək və biz atmalı olduğumuz yeni addımları müəyyənləşdirəcəyik. Bir daha xoş gəlmisiniz.

Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri **Andreas RAYXHARDT** dedi:

- Cənab Prezident, dostcasına dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm. Ötən dəfə biz Vyanada görüşmüşdük. O vaxt mən nazir müavini idim, indi nazirəm, lakin mövzular dəyişməyib. Biz hələ də iqtisadi sahələrimizi yaxınlaşdırmağa və birgə layihələri inkişaf etdirməyə çalışırıq. Ötən dəfə Vyanada müzakirə etdiyimiz kimi, vəzifəmiz bəzi layihələrlə bağlı konkret ideyaları inkişaf etdirmək və Avstriyanın dünyada məşhur texnologiya şirkətlərini Azərbaycana gətirməkdir. Bir qədər sonra biz Sizə bəzi konkret ideyaları təqdim etmək istəyirik. Bizim burada kiçik, lakin rəqabət qabiliyyəti çox yüksək olan biznes nümayəndə heyətimiz var. Bizim bu gün və sabah ikitərəfli görüşlərimiz olacaq.

# Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu olacaq və təhsil sektorundakı əməkdaşlığımız davam edəcək.

Bildiyiniz kimi, Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir. Elə bir sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. O cümlədən sizin rəhbərlik etdiyiniz sahə də həm bu gün üçün, həm də gələcək üçün çox önəmlidir ki, gələcək nəsillərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsınlar, bilikli, savadlı olsunlar və gələcəkdə ölkələrimizin inkişafında fəal olsunlar. Sizi səmimiyyətlə salamlayıram. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi sarsılmazdır. Biz bütün sahələrdə - həm siyasi sahədə, həm də iqtisadi, nəqliyyat, enerji, mədəniyyət, təhsil sahələrində gözəl nəticələri görürük.



Bildiyiniz kimi, bir neçə gündən sonra Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçiriləcək. Biz bu görüşə ciddi hazırlaşırıq və əminəm ki, qəbul ediləcək qərarlar türkdilli dövlətlərin birliyini daha da möhkəmləndirəcək. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz.

* * *

Türkiyənin Təhsil naziri **Ziya SELÇUK** dedi:

-Təşəkkür edirəm. Zati-alinizin bizi qəbul etməsindən böyük məmnunluq duyuruq. Çox minnətdaram, sağ olun. Cənab Prezidentimizin salamlarını çatdırmaq istərdim.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Mənim də salamlarımı çatdırın.

**Ziya SELÇUK:** Prezidentimiz Sizə olan dost münasibətini hər zaman ifadə edir. "Bir millət, iki dövlət" şüarının daim vurğulandığı və bu məsələnin əhəmiyyəti barədə danışıldığı da Sizə məlumdur.

Zati-alinizin Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi barədə qərarı Türkiyədə böyük bir sevinc hissi yaradıb. Bunu, cənab Prezident, Sizə çatdırmaq istəyirəm. Mükəmməl səviyyədə olan əməkdaşlığımız hamımızı sevindirir. Həm vətəndaşlarımızın ünsiyyətinin artması, həm tələbələrin Türkiyəyə təhsil almağa gəlmələri, həm də Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın genişlənməsi hamımızı çox məmnun edir.

* * *

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla onu qardaşlıq münasibətlərinin bağladığını dedi. Dövlət başçısı qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında böyük sərvətimiz olan dostluq və qardaşlığımızı möhkəm iş birliyinə çevirməyə nail olmuşuq. Prezident İlham Əliyev bildirdi ki, dünya miqyasında Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur.

Dövlət başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçən il Bakıda hərbi paradın keçirildiyini, Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə Bakının mərkəzində təntənəli keçid etdiklərini xatırladaraq, xalqlarımızın bunu böyük fəxr hissi ilə izlədiyini bildirdi.

Görüşdə ali və peşə təhsili sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Bakıda Rus Kitab Evinin 10 illik yubileyi qeyd olunub

Oktyabrın 10-da Rus Kitab Evinin 10 illik yubileyi qeyd olunub. AZƏRTAC xəbər verir ki, tədbiri açan "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun prezidenti Valeri Tursunov Rusiya ilə Azərbaycan arasında yüksək səviyyədə münasibətlərin inkişafında iki dövlətin liderlərinin mühüm rolunu vurğulayıb.

Mərasimdə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib.

Bakıda Rus Kitab Evinin açılmasının 10 illik yubileyinin əlamətdar hadisə olduğunu vurğulayan Prezidentin köməkçisi dedi ki, bu, postsovet məkanında Rusiya və xarici ölkə yazıçılarının müxtəlif janrlarda rus dilində nəşr olunmuş kitablarının təqdim edildiyi ilk ixtisaslaşdırılmış mağazadır. Fəaliyyətdə olduğu illər ərzində bu mağaza həm oxucuların sevimli yeri, həm də millətlərarası həmrəyliyin möhkəmlənməsi və Azərbaycan ilə Rusiyanın mədəni-humanitar əlaqələrinin dərinləşməsi üçün əlverişli məkan olub.

Son iki əsr ərzində olduğu kimi, ölkələrimizin və xalqlarımızın bu gün də dostluq və mehriban qonşuluq ənənələrini davam etdirdiyini vurğulayan Əli Həsənov bildirdi ki, dərin köklərə malik olan bu ənənələr hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. Ən əsası odur ki, dövlət müstəqilliyi bərpa ediləndən sonra biz tarixən yaranmış ənənələri qoruyub saxlamağa və artırmağa, onları keyfiyyətcə yeni səviyyəyə çatdırmağa nail olmuşuq. Şübhəsiz, bunda həm strateji əməkdaşlığın təməlini qoymuş Ümummilli Lider Heydər Əliyevin, həm də dövlətlərimizin indiki rəhbərləri cənab İlham Əliyevin və cənab Vladimir Putinin çox böyük xidmətləri olub.

İndiki mərhələdə Azərbaycan-Rusiya münasibətlərinin daha da möhkəmləndiyini qeyd edən Prezidentin köməkçisi dedi ki, bu əlaqələr siyasi və ticari-iqtisadi sahələrdən enerji və humanitar sahələrə qədər demək olar ki, bütün sferaları əhatə edir. Dövlət başçılarının mütəmadi qarşılıqlı səfərləri və beynəlxalq forumlar çərçivəsində görüşləri ikitərəfli faydalı və konstruktiv tərəfdaşlığın gələcək inkişafına təkan verir.

Azərbaycanın postsovet məkanında rus dilinə böyük hörmət bəslənən azsaylı ölkələrdən biri olduğunu diqqətə çatdıran Əli Həsənov dedi: "Hələ çar Rusiyası dövründə və sovet hakimiyyəti dönəmində Azərbaycan dünyaya pəncərə, həm rus, həm də dünya mədəniyyəti, ədəbiyyatı və elmi ilə ünsiyyət vasitəsi olub. Yeri gəlmişkən, yüz il bundan əvvəl Azərbaycanda ilk ali məktəbin - Bakı Dövlət Universitetinin açılması Rusiyanın aparıcı alimlərinin cəlb edilməsi sayəsində mümkün olub. Bu alimlər arasında rektor vəzifəsinə dəvət edilmiş professor Vasili Razumovski də vardı. Məlum olduğu kimi, başlanğıc mərhələdə universitetdə tədris yalnız rus dilində aparılırdı. Sovet dövründə isə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə istedadlı Azərbaycan gəncləri təhsil almaq üçün Rusiyanın aparıcı ali məktəblərinə göndərilirdi. Yadımdadır, Heydər Əliyev tələbələri təhsil almağa yola salarkən onlara rus dilini mükəmməl öyrənməyi tövsiyə edirdi. Rus dili müxtəlif ədəbiyyata yol açır, dünyagörüşünü və bilikləri zənginləşdirirdi. Sevindirici haldır ki, ən müxtəlif istiqamətlərə aid ixtisaslara yiyələnmiş kadrlar respublikaya qayıdandan sonra Azərbaycanın inkişafına öz töhfələrini veriblər. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra da rus dili özünün millətlərarası dil mövqeyini itirməyib, ona əvvəlki kimi ehtiyac var. Buna parlaq sübut kimi bir faktı göstərmək olar ki, respublikamızın 300-dən çox ümumtəhsil məktəbində tədris rus dilində aparılır. Yeri gəlmişkən, son illərdə tədrisin rus dilində aparıldığı siniflərə tələbat artır. Demək olar ki, bütün dövlət ali məktəblərində və özəl ali məktəblərin bəzilərində təhsil fəaliyyəti paralel olaraq Azərbaycan və rus dillərində aparılır. Əhalinin əksəriyyəti rus dilini sərbəst bilir, böyüməkdə olan nəsil bu dili öyrənməyə ciddi maraq göstərir".

Bakının xəritəsində Puşkinin, Lermontovun, Tolstoyun adlarını daşıyan küçələrin olduğunu söyləyən Prezidentin köməkçisi bildirdi ki, Yesenin və Lermontov muzeylərində bu şairlərin ölkəmizdə olması ilə bağlı xatirələr qorunub saxlanılır. "Puşkin mövzusu"nun davamı kimi qeyd etmək istərdim ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtındakı mərkəzi bağların birində böyük rus şairi Aleksandr Puşkinə heykəl ucaldılıb. Ölkəmizdə Slavyan Universiteti və Səməd Vurğun adına Rus Dram Teatrı fəaliyyət göstərir, teatrlarımızın çoxunda rusdilli truppa var. Bakıda Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi və rusdilli yazıçıların "Luç" Assosiasiyası fəaliyyət göstərir. Rusiyanın iki aparıcı ali məktəbinin - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenev adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılıb.



Bundan əlavə, rus dilində qəzetlər və jurnallar, dərsliklər və bədii ədəbiyyat nəşr olunur, televiziya və radio kanallarında verilişlər translyasiya edilir, Rusiyanın çoxsaylı dövri mətbu nəşrləri satılır.

Əli Həsənov xüsusi vurğulayıb ki, Cənubi Qafqazda etnik rusların ən böyük icması Azərbaycanda yaşayır. Onlar öz ana dilini, mədəniyyətini və milli ənənələrini qoruyub saxlayıblar. Onlar cəmiyyətin ictimai-siyasi, elmi-mədəni və sosial-iqtisadi həyatında geniş təmsil olunurlar, dövlətçiliyimizin möhkəmlənməsində fəal iştirak edirlər. Şübhəsiz ki, bütün yuxarıda deyilənlər hər iki ölkənin və xalqlarımızın qarşılıqlı maraqlarına cavab verən hərtərəfli əməkdaşlığın inkişafına və dərinləşməsinə dəlalət edir.

Çıxışının sonunda Azərbaycan Prezidenti İlham Əliyevin "Ölkələrimiz arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var. Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır" sözlərini xatırladan Əli Həsənov deyib: "Əminəm ki, bu tədbir humanitar əməkdaşlığımızın daha da möhkəmlənməsinə öz töhfəsini verəcək və bizi daha da yaxınlaşdıracaq. Rus Kitab Evinə uğurlu fəaliyyət və çoxlu sədaqətli alıcı, bütün kollektivə möhkəm cansağlığı və işlərində yeni nailiyyətlər arzu edirəm".

Tədbirdə çıxış edən Rusiya Federasiyası Prezidentinin xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov xatırladıb ki, "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondu 10 il əvvəl Azərbaycanda dostları ilə birgə bu əlamətdar humanitar layihəni reallaşdırmağa nail olub. "Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi olmasa idi, eləcə də Bakı sakinlərinin rus dili və mədəniyyətinə isti münasibəti olmasa idi, bu ideya həyata keçirilə bilməzdi. Bu gün Rus Kitab Evi təkcə rus dilində ədəbiyyat yayan məkan deyil, həm də Rusiya və Azərbaycanın, eləcə də rus dilini sevən və bu dildə danışan ölkələrin görkəmli yazıçılarının, tarixçilərinin, elm və təhsil nümayəndələrinin görüşdükləri məkana çevrilib. Ötən 10 il ərzində bu məkanda çoxsaylı tədbirlər keçirilib. Əminəm ki, Rus Kitab Evinin fəaliyyəti iki dövlətin müvafiq strukturlarının dəstəyi sayəsində davam edəcək", - deyən Vladimir Çernov Rus Kitab Evinin 10 illiyi münasibətilə Rusiyanın məşhur nəşriyyatları və universitetlərinin bu məkana böyük miqdarda nüsxə kitablar hədiyyə etdiklərini diqqətə çatdırıb. Yubileyin A.S.Puşkinin anadan olmasının 220 illiyi ilə eyni vaxta düşdüyünü deyən Vladimir Çernov böyük rus şairinə Azərbaycanda verilən yüksək dəyəri qeyd edib, vaxtilə abidəsinin Bakıda açılışını və həmin tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çıxışını xatırladıb.

Tədbirdə "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərova Rusiya Federasiyasının dövlət mükafatı olan "A.S.Puşkin" medalı, "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun Azərbaycan filialının icraçı direktoru Rauf Həsənova isə Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin təşəkkürnaməsi təqdim edilib.

Daha sonra çıxış edən Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası işləri üzrə və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Azərbaycanda rus dili və ədəbiyyatına göstərilən yüksək münasibətdən, iki dövlət arasında dostluqdan, bu dostluğun, o cümlədən parlament səviyyəsində inkişafından, davamlı olaraq birgə tədbirlər keçirilməsindən danışıb, iki dövlətin liderlərinin bu işə xüsusi töhfə verdiyini bildirib.

Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin Azərbaycanda cəmiyyətin bu dilə tələbatının yüksək səviyyədə təmin olunduğunu deyib. Bakının müxtəlif yerlərində açılan kitab evlərində də rus dilində kitab bölmələri olduğunu qeyd edən Mixail Zabelin VI Bakı Beynəlxalq Kitab Yarmarkasında Rusiyanın bir çox nəşriyyatlarının iştirak etdiyini xatırladıb. "Bu gün Azərbaycanda 120 mindən çox təkcə rus əhalisi yaşayır. Mən hələ digər millətlərin nümayəndələrini demirəm. Azərbaycan nəinki Qafqazda, bütün Avropaya örnək olan multikulturalizm mərkəzinə çevrilib", - deyə Mixail Zabelin vurğulayıb.

Mərasimdə çıxış edən Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov Rus Kitab Evinin fəaliyyətinə göstərilən dəstəyə görə iki dövlətin müvafiq strukturlarına təşəkkürünü bildirib. Rusiya-Azərbaycan münasibətlərindən söz açan səfir son günlər Azərbaycanda həyata keçirilən birgə mədəni tədbirlər fonunda Rus Kitab Evinin 10 illik yubiley tədbirinin xüsusi yeri olduğunu vurğulayıb. O, yaşadığımız rəqəmsal dövrdə kitaba önəm verilməsini yüksək qiymətləndirib.

Rusiya yazıçısı, publisist Yuri Polyakov Rusiya Kitab Evinin bir mədəniyyət məbədi olduğunu vurğulayıb, müasir dövrdə mütaliənin əhəmiyyətindən danışıb.

Azərbaycanın Xalq yazıçısı, Yazıçılar Birliyinin katibi, Azərbaycan PEN-klubun prezidenti Çingiz Abdullayev Bakıda Rus Kitab Evinin fəaliyyətini yüksək qiymətləndirib, Azərbaycanda cəmiyyətin inkişafında rus dili və ədəbiyyatının rolunu, habelə rus dili və digər dilləri bilməyin önəmini, mütaliənin vacibliyini qeyd edib.

Moskvadakı A.S.Puşkin adına Dövlət Rus Dili İnstitutunun rektoru Marqarita Rusetskaya rəhbərlik etdiyi tədris müəssisəsi ilə Azərbaycanın bir çox tədris ocaqları arasında onilliklər boyunca davam edən dostluq, peşəkar münasibətlərdən danışıb, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti ilə əlaqələri vurğulayıb. Rus Kitab Evinin həm də rus dilində danışan, düşünən, oxuyan hər kəsi cəlb edəcəyinə ümidvar olduğunu deyib.

"Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərov, "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun Azərbaycan filialının icraçı direktoru Rauf Həsənov Rus Kitab Evinin fəaliyyətinin önəmindən danışıb, təltif edildiklərinə görə təşəkkürlərini bildiriblər.

Qeyd olunub ki, respublikamızın 300-dən çox ümumtəhsil məktəbində tədris rus dilində aparılır. Ölkəmizin paytaxtında Rusiyanın iki aparıcı ali məktəbinin - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılıb. Bakıda Puşkinin, Lermontovun, Tolstoyun adlarını daşıyan küçələr, Yesenin və Lermontov muzeyləri fəaliyyət göstərir.

Sonda Rus Kitab Evinə rus dilində ədəbiyyat hədiyyə olunub.

# YAP İcra Katibliyində "Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri" mövzusunda "dəyirmi masa" keçirilib



Oktyabrın 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri" mövzusunda "dəyirmi masa" keçirilib. "Dəyirmi masa"da Milli Məclisin deputatları, siyasi partiyaların nümayəndələri, QHT təmsilçiləri və ekspertlər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi bəyanat gündəmin ciddi şəkildə dəyişməsinə gətirib çıxarıb. Bu bəyanat təkcə Azərbaycan cəmiyyətində deyil, daha geniş müstəvidə müzakirə olunur. Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı, sadəcə olaraq, danışıqlar prosesində Azərbaycanın dəfələrlə səsləndirilmiş mövqeyinin bir daha təkrarlanması demək deyil. Bu bəyanatın daha böyük əhəmiyyəti olduğunu vurğulamaq lazımdır. Bu çıxış bir çox ünvanlara hədəflənmiş çıxış idi. Onun hədəflərindən biri Ermənistandır. Bununla Ermənistan cəmiyyətinə mesaj verildi ki, işğalçı ölkə öz xülyasından əl çəkməlidir. Mesajın ünvanlandığı hədəflərdən biri beynəlxalq təşkilatlardır. Çünki onlar Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar vasitəçilik missiyasını üzərlərinə götürüblər. Prezident İlham Əliyevin mesajının ünvanı həm də Azərbaycan cəmiyyəti idi. Bu gün ölkəmizin hər yerində "Qarabağ Azərbaycandır!" sədasını eşidirik. Bu, torpaqları işğaldan azad etmək əzmini daha da qətiləşdirir. Yeni Azərbaycan Partiyası olaraq, bu ideyanın gerçəkləşdirilməsi üçün addımlar atırıq. Yollarda Bakı Nəqliyyat Agentliyi ilə birlikdə bu şüarları əks etdirən elektron monitorlar quraşdırılıb, plakatlar yerləşdirilib, kampaniya üçün köynəklər sifariş verilib. "Qarabağ Azərbaycandır!" mesajı cəmiyyətin milli birliyini və vətəndaş həmrəyliyini təmin edən ən mühüm ideyalardan biridir. Bu baxımdan, "Qarabağ Azərbaycandır!" ideyası böyük bir hərəkata çevriləcək. Bu ideyanın ətrafında cəmiyyətimizin üzvlərinin fəal şəkildə birləşməsi bunu deməyə əsas verir.

Baş Nazirin müavini vurğulayıb ki, Ermənistanın konstruktiv mövqeyinin olması danışıqlar prosesinin normal aparılmasının vacib şərtlərindən biridir. Əgər Ermənistan qeyri-konstruktiv mövqeyini davam etdirəcəksə, beynəlxalq təşkilatlar, vasitəçilər danışıqlar prosesi ilə bağlı mövqeyində ciddi düzəlişlər etməlidir.

"Dəyirmi masa"da çıxış edən Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı, deputat Bəxtiyar Əliyev, Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa, deputat Fəzail İbrahimli, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri, deputat Zahid Oruc, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlu, deputat Elman Nəsirov, politoloq Mübariz Əhmədoğlu və digərləri Prezident İlham Əliyevin bəyanatının tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Qeyd olunub ki, bu baxımdan, "Qarabağ Azərbaycandır!" hərəkatının yaradılması sosial sifarişə çevrilib.

# Azərbaycan sahibkarları ölkə Prezidentinin çağırışını dəstəklədi

10 oktyabr 2019-cu il tarixdə Azərbaycan Sahibkarlar Konfederasiyasında (ASK) Rəyasət Heyətinin geniş tərkibdə iclası keçirilib. İclas Azərbaycan Prezidenti cənab İlham Əliyevin məcburi köçkünlər üçün salınmış "Qobu Park-1" və "Qobu Park-2" yaşayış komplekslərinin açılışında sahibkarlara ünvanladığı çağırışa həsr olunmuşdur.

İclası giriş nitqi açan Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev bildirdi ki, ölkəmizin iqtisadi inkişafı ilə paralel vətəndaşlarımızın sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə möhtərəm Prezidentin rəhbərliyi ilə mühüm addımlar atılır: "2019-cu ilin ötən doqquz ayında Azərbaycan Prezidentinin iki böyük sosial paketlə bağlı qərarlarını xatırlatmaq istərdim. Eyni zamanda qaçqın və məcburi köçkünlərin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində böyük işlər görülüb. Hesab edirəm ki, sahibkarlarımız da bu işlərdə iştirak etməli və cənab Prezidentin nəcib təşəbbüsünə qoşulmalıdırlar".

İclasda çıxış edən Rəyasət Heyətinin üzvləri Zakir Nuriyev, Süleyman Qasımov, Şahmar Vəliyev, Vahid Novruzov, Məhəmməd Abdullayev, AMCHAM-in icraçı direktoru Natavan Məmmədova, ATİB-in sədri Cemal Yangın, assosiasiya rəhbərləri və digər sahibkarlar bu çağırışa qoşulmağa hazır olduqlarını bəyan etdilər.

İclasda iştirak edən İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov çıxışında ölkə rəhbərinin ciddi bir məsələni gündəmə gətirdiyini vurğulayaraq qeyd etdi ki, İqtisadiyyat Nazirliyi bu təşəbbüslərdə sahibkarlarımızı tam dəstəkləyir: "Hesab edirik ki, sahibkar həm də bir vətəndaş kimi ölkəsinin problemlərinin həllinə öz töhfəsini verməyə çalışmalıdır".

Sonda Rəyasət Heyətinin qərarı ilə vitse-prezident Vüqar Zeynalovun rəhbərliyi ilə işçi qrup yaradıldı və cənab Prezidentə müraciət qəbul olundu.

*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm, cənab Prezident!

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu müasir Azərbaycanın inkişaf strategiyasının zati-aliləriniz tərəfindən müdriklik və böyük uzaqgörənliklə davam etdirilməsi digər sahələrdə olduğu kimi, ölkəmizdə iqtisadiyyatın davamlı və dayanıqlı inkişafını təmin etmiş, sağlam bazar münasibətləri, azad rəqabət mühiti və güclü sahibkarlar təbəqəsi formalaşmışdır.

Məhz Sizin rəhbərliyinizlə həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması tədbirləri və yeni institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirir. Həyata keçirilən genişmiqyaslı dəstək tədbirlərinin nəticəsidir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti genişlənir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı və ixrac imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır.

Sizin təşəbbüsünüzlə beynəlxalq layihələrin reallaşdırılması, sahibkarlığın dəstəklənməsi üçün institusional mexanizmlərin, nümunəvi modellərin və təşviq alətlərinin uğurlu tətbiqi, yerli istehsalın davamlı olaraq gücləndirilməsi Azərbaycan iqtisadiyyatında özəl bölmənin rolunun və rəqabət qabiliyyətinin artırılmasına mühüm təsir göstərməkdədir.

Azərbaycan şirkətləri sosial məsuliyyət çərçivəsində ölkəmizin sosial qayğılarının həllində fəal iştirak etməyə hazırdırlar. Məcburi köçkünlər üçün salınmış "Qobu Park-1" və "Qobu Park-2" yaşayış kompleksləri buna ən yaxşı nümunələrdəndir.

Möhtərəm, cənab Prezident!

"Qobu Park-2" yaşayış kompleksinin açılışında Azərbaycan sahibkarlarına etdiyiniz çağırış ölkəmizdə çalışan bütün iş adamları tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Sahibkarlığın inkişafına dövlət dəstəyini və Sizin rəhbərliyiniz altında aparılan dərin iqtisadi islahatların müsbət nəticəsini öz fəaliyyətində daima hiss edən Azərbaycan sahibkarları Sizin bu çağırışınıza qoşularaq, ölkəmizin sosial qayğılarının həll olunmasında iştirak etməyə hazırdır.

Bu məqsədlə 10 oktyabr 2019-cu il tarixində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyətinin geniş tərkibdə iclası keçirildi. İclasda çıxış edən sahibkarlar bu təşəbbüsə qoşulmağa hazır olduqlarını bəyan etdilər.

Rəyasət Heyətinin qərarı ilə bununla əlaqədar ASK-nın tərkibində işçi qrupu yaradılıb. İşçi qrupu sahibkarlardan daxil olan təklifləri dəyərləndirərək Qaçqın və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsi ilə əlaqəli şəkildə konkret layihələrin icrasını təmin edəcəkdir.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli cənab Prezident!

Biz - 4-cü "LiFFt" Avrasiya Ədəbi Festivallar Festivalının iştirakçıları olan yazıçılar oktyabrın 2-də "Salam, Azərbaycan!" müsabiqəsi çərçivəsində Sumqayıt şəhərində olduq. Şəhərin gözəlliyi və sumqayıtlıların qonaqpərvərliyi bizi valeh etdi.

Bizi şəhər icra hakimiyyətinin başçısı qarşıladı və müşayiət etdi. Biz möhtəşəm Heydər Əliyev Mərkəzində, Poeziya Evində və əsl möcüzə kimi təsir bağışlayan bulvarda olduq. Öyrəndik ki, bütün bu gözəllik Sizin sayənizdə yaradılıb. Şəhər gülüstana bənzəyir.

Sizin şəxsinizdə Sumqayıta və bütün Azərbaycana səmimi təşəkkürümüzü bildirmək istəyirik.

Düşünürük ki, bu şəhərdən aldığımız təəssürat heç vaxt unudulmayacaq və biz bunu gələcək əsərlərimizdə əks etdirəcəyik.

*Hörmətlə,*

**Oljas Süleymenov**

Xalq yazıçısı, Qazaxıstanın Əmək Qəhrəmanı. Sovet dövrünün çoxsaylı orden və medalları, o cümlədən "İncəsənət və ədəbiyyat" ordeni (Fransa), V dərəcəli Knyaz Yaroslav "Mudrıy" ordeni (Ukrayna), "Dostluq" ordeni (Rusiya), "Şöhrət" ordeni (Azərbaycan) ilə təltif edilmiş, Türkiyə Beynəlxalq "Türk dünyasına töhfəyə görə" mükafatı laureatı.

**Radomir Andriç**

Serbiya Yazıçılar İttifaqının sədri. "Qızıl Orfey", Nikita Staneku, Lukian Blaqa, "Zolotaya ruçka", Eminesku kimi nüfuzlu Avropa və Serbiya mükafatları laureatı.

**Yevgeni Popov**

Moskva Yazıçılar İttifaqının katibi, Rus PEN-mərkəzinin təsisçisi və vitse-prezidenti, İsveç PEN-mərkəzinin assosiativ üzvü. Rusiya Federasiyasının Əməkdar Mədəniyyət İşçisi. "Bolşaya kniqa" Rusiya mükafatı laureatı. Moskva Yazıçılar İttifaqının "Venets" mükafatı, Macarıstan Mədəniyyət Nazirliyinin "Pro cultura Hungaria" xatirə nişanı, "Triumf" mükafatı ilə təltif edilib.

**Aleksandr Selimoviç**

UNESKO-nun Amerika Birləşmiş Ştatlarından olan fəxri mədəniyyət səfiri, PEN-Amerikanın, Amerika Şairlər Akademiyasının üzvü, Boliviya Yazıçılar və Rəssamlar İttifaqının fəxri üzvü, Delavar Demokratik Partiyasının Əlaqələndirmə Komitəsinin üzvü və Nyu Kastl Qraflığından deputatlığa namizəd.

**Marin Kadiyev**

Müstəqil Bolqar Yazıçılar İttifaqının sədri. Bolqarıstan Elm və İncəsənət Akademiyasının üzvü.

**Leo Butnaru**

Rumıniya Yazıçılar İttifaqının Kişineu filialının sədri. Moldova PEN-mərkəzinin təsisçi üzvü.

Moldova Respublikasının və Rumıniyanın dövlət təltiflərinə layiq görülüb, Rumıniya Yazıçılar İttifaqının Poeziya Mükafatı, Moldova Respublikasının Milli Mükafatı laureatı.

**Urmas Vadi**

2010-cu ildə Estoniya Mədəniyyət Fondunun illik teatr mükafatı laureatı, 2011-ci və 2017-ci illərdə nüfuzlu "Friedebert Tuglas Short Stroy Award" mükafatı laureatı. 2012-ci ilin ən vacib romanlarından biri olan "Tagasi Eestisse"nin (Estoniyaya qayıdış) müəllifi.

**Marsel Salimov**

Rusiya Federasiyasının "Dostluq" ordeni kavaleri, Başqırdıstanın Əməkdar mədəniyyət işçisi, Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi, Rusiya Jurnalistlər İttifaqı mükafatı, Sergey Mixalkov adına Beynəlxalq Ədəbiyyat mükafatı, "Literaturnaya qazeta"nın ("12 stul klubu"nun) "Zolotoy Telyonok" mükafatı laureatı.

**Hadaa Sendu**

Monqolustanda Ümumdünya poeziya almanaxının təsisçisi. "Minilliyin şairi" mükafatı, "Poeziyada fəth edilmiş zirvələrə görə" Ümumdünya poeziya mükafatı, Metyu Arnold mükafatı (2018); Ümumdünya Yazıçılar İttifaqı mükafatı (2019); "Dünya sülh ikonası" mükafatı (2019) və Müasir intibah ədəbi mükafatı kimi ədəbi mükafatlar laureatı.

**Viktor Klıkov**

"Avstriya poeziyası" ədəbi klubunun təsisçisi və prezidenti.

APİA Beynəlxalq Yazıçılar və Publisistlər Assosiasiyasının (London) üzvü. Avstriya beynəlxalq PEN klub mərkəzinin üzvü. A.S.Qriboyedov adına medal, David Buryuk gümüş medalı, "V.V.Mayakovski" ordeni, müxtəlif mükafatlar laureatı və başqaları.

# FHN-də Şamaxı, İsmayıllı və Ağsuda baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasına həsr olunmuş toplantı keçirilib

Oktyabrın 10-da Fövqəladə Hallar Nazirliyinin (FHN) Aparatında cari il fevralın 5-də və 6-da Şamaxı, İsmayıllı və Ağsu rayonlarının ərazisində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması məsələlərinə həsr olunmuş toplantı keçirilib.



FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplantının keçirilməsində məqsəd baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı ölkə başçısının verdiyi sərəncam və tapşırıqların icrası üzrə ötən dövr ərzində görülmüş tədbirlərin, həmçinin işlərin qısa müddətdə yekunlaşdırılması istiqamətində qarşıya çıxan məsələlərin həlli yollarının müzakirəsi olub.

Toplantıda çıxış edən nazir Kəmaləddin Heydərov qeyd edib ki, Prezident İlham Əliyevin hadisənin ertəsi günü zəlzələ zonasına getməsi, təbii fəlakətin nəticələri ilə yerindəcə tanış olması, zəlzələdən ziyan görmüş insanlarla görüşməsi və fəsadların operativ aradan qaldırılması istiqamətində mühüm tapşırıqlar verməsi ölkə başçısının çətin vəziyyətə düşən vətəndaşlarımıza hər zaman göstərdiyi qayğının növbəti təsdiqi oldu. Odur ki, hadisədən dərhal sonra zəlzələdən ziyan çəkmiş evlərin, sosial və infrastruktur obyektlərinin tikintisi, bərpa-gücləndirmə və təmir işləri ilə əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamların əhəmiyyəti xüsusi vurğulanmalıdır. Zəlzələ bölgəsində fəsadların aradan qaldırılması ilə bağlı görülən bütün işlər ilk gündən daimi olaraq Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında olub. Bu isə əhali arasında böyük razılıq və minnətdarlıq hissi ilə qeyd olunur.

Nazir bildirib ki, ötən müddət ərzində Fövqəladə Hallar Nazirliyinin komissiyaları tərəfindən 10 min 608 fərdi yaşayış evi müayinə olunub. Müayinələr nəticəsində 663 fərdi yaşayış evinin qəzalı vəziyyətdə olduğu, 1988-nin bərpaya, 4826-nın təmirə ehtiyacı olduğu müəyyən edilib. Digər evlərin isə qənaətbəxş vəziyyətdə və ya uzun illərdən bəri istifadəsiz olduğu aşkarlanıb. Müayinələrin nəticələrinə uyğun olaraq, nazirliyin müvafiq qurumları tərəfindən qısa müddət ərzində layihə-smeta sənədləri hazırlanıb, ərazidə bərpa və yenidənqurma işlərinə başlanılıb.

Nazir bildirib ki, bölgədə zədələnmiş evlərin müayinəsi və layihə-smeta sənədlərinin hazırlanması işlərinə nazirliyin 200-ə qədər mütəxəssisi, bərpa, tikinti işlərinə isə 21 tikinti şirkəti, 3000-ə yaxın fəhlə və mühəndis cəlb olunub ki, bunların da 70 faizə qədəri yerli sakinlərdən ibarətdir.

Qeyd olunub ki, 2019-cu il sentyabrın 30-na qədər qəzalı evlərin əvəzinə 327 fərdi yaşayış evinin tikintisi başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. Hazırda 206 fərdi yaşayış evinin tikintisi davam etdirilir və bu ilin noyabr ayında başa çatdırılacaq.

Nazirin sözlərinə görə, bölgədəki qəzalı və bərpaya ehtiyacı olan evlərin bir hissəsi geoloji cəhətdən əlverişsiz-sürüşən ərazilərdə yerləşdiyindən həmin ərazilərdə yeni evlərin tikintisi və ya bərpası məqsədəuyğun hesab edilməyib. Bu səbəbdən Şamaxı şəhəri ərazisində cəmi 174 mənzildən ibarət 3 ədəd 4-5 mərtəbəli yaşayış binasının tikintisi qərara alınıb və hazırda hər 3 binanın tikintisi başa çatmaq üzrədir. Bundan başqa, Ağsu rayonunda sürüşmə zonasında yerləşən evlərin sakinlərinin köçürülməsi üçün Xatman kəndi ərazisində 24 evdən ibarət yeni qəsəbə salınır. İsmayıllı rayonu üzrə tikinti-bərpa işləri də nəzərdə tutulmuş qrafik üzrə davam etdirilir.

Bölgədə 1203 fərdi yaşayış evində bərpa işləri başa çatıb, 423 evdə bərpa işləri davam etdirilir. Digər bərpaya ehtiyacı olan evlərlə bağlı sənədləşmə işləri başa çatmaq üzrədir və yaxın günlərdə bərpa işlərinə başlanılacaq.

Nazir xüsusilə vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən bölgədə xeyli işlər görülüb. İlk günlərdə birliyin əməkdaşları və könüllüləri tərəfindən zəlzələdən ziyan çəkənlərə tibbi, psixoloji, ərzaq yardımları göstərilib, sosial vəziyyəti ağır olan ailələrin yaşayış-məişət problemləri araşdırılıb, müvafiq köməklik göstərilib. "Regional İnkişaf" İctimai Birliyi tərəfindən zəlzələdən zərərçəkmişlər üçün 79 yeni fərdi yaşayış evi tikilib, 15 ev əsaslı təmir edilib: "Bu gün də bölgədə Heydər Əliyev Fondu ilə əlaqələndirilmiş şəkildə fəaliyyətimiz davam edir və fondun böyük dəstəyini hiss edirik".

Kəmaləddin Heydərov onu da əlavə edib ki, bölgədə müayinə, bərpa və təmir işləri ilə bağlı bəzi problemlərlə qarşılaşılır. Belə ki, zəlzələnin baş verdiyi tarixdən 8 ay keçməsinə baxmayaraq, bu günə qədər vətəndaşlar tərəfindən evlərinə baxış keçirilməsi barədə müraciətlər davam edir. Nazirliyin müayinə qrupları 6 ay ərzində zəlzələ bölgəsində olublar. Araşdırmalar göstərir ki, zəlzələdən sonrakı ilk aylarda daxil olan müraciətlər istisna olmaqla, digər ilkin baxış müraciətlərinin mütləq əksəriyyəti əsassız olub. Həmin evlərə baxışlar keçirilərkən onlarda zəlzələ ilə əlaqədar qüsurların olmadığı və əksəriyyətinin qənaətbəxş vəziyyətdə, bir sıra evlərin isə uzun müddət istifadəsiz olduğu müəyyən edilib. Müraciətlər çox vaxt zəlzələ ilə əlaqəsi olmayan, baxımsızlıq səbəbindən fiziki köhnəlmiş, habelə bəzi vətəndaşların özləri tərəfindən sonradan müdaxilə edilmiş evlərin, yardımçı tikililər və hasarların, yay aylarında mövsümi istifadə üçün nəzərdə tutulan tikililərin bərpası ilə bağlı olur. Buna baxmayaraq, həmin insanlar təkrar baxış üçün müraciət etməkdə davam edirlər. Belə ki, 2019-cu il sentyabrın 25-dək zəlzələ bölgəsindən nazirliyə daxil olmuş 6 minə yaxın vətəndaş müraciətinin 2511-i təkrar müraciətdir. Həmçinin 268 vətəndaşdan 4 və daha artıq müraciət daxil olub. Odur ki, ilkin baxış komissiyalarının fəaliyyəti artıq dayandırılıb və nazirlik tərəfindən zəlzələ bölgəsində müayinə işləri başa çatdırılıb. Bundan sonra işlər yalnız bu vaxta qədər tərtib edilmiş aktlar əsasında formalaşdırılmış siyahılar üzrə aparılacaq və evlərin müayinəsi üçün müraciətlərə baxılmayacaq.

Toplantıda İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov və Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Vahid Tağıyev çıxış edərək görülən işlər barədə məlumat veriblər. Zəlzələnin fəsadlarının qısa müddətdə aradan qaldırılması üçün göstərdikləri xüsusi diqqət və qayğıya görə rayon camaatı adından ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkür ediblər. Bildirilib ki, ölkə başçısının imzaladığı sərəncamlara uyğun olaraq, zəlzələ nəticəsində İsmayıllı rayonu üzrə təmirə ehtiyacı olduğu müəyyən edilmiş 458 evdən 416-da, Şamaxı rayonu üzrə 2264 evdən 501-də, Ağsu rayonu üzrə 2104 evdən 408-də təmir işləri artıq bitib. Həmçinin Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən ümumilikdə 3 məktəb, 3 uşaq bağçası və 10 tibb məntəqəsinin tikintisi nəzərdə tutulub ki, bunlardan 3 məktəb və 6 tibb məntəqəsində işlər yekunlaşıb, digər obyektlərdə isə işlər yaxın zamanlarda bitəcək. İşlərin qısa müddətdə tamamlanması üçün bütün qüvvələr səfərbər olunub.

Sonra tikinti-bərpa işlərini həyata keçirən podratçı şirkətlərin nümayəndələri çıxış edərək görülən işlər və qarşıya çıxan məsələlər barədə toplantı iştirakçılarına məlumat veriblər.

Sonda ölkə rəhbərliyinin sərəncam və tapşırıqlarının qısa müddətdə icrasının təmin edilməsi və işlərin tezliklə sona çatdırılması məqsədilə qarşıda duran məsələlər geniş müzakirə edilib. İşlərin vaxtında başa çatdırılması üçün Kəmaləddin Heydərov nazirliyin aidiyyəti qurumlarına və podratçı təşkilatlara müvafiq tapşırıqlar verib.

# <u>*Giorgi QAXARİYA:*</u> "Azərbaycan və Gürcüstan çox etibarlı, güclü iqtisadi tərəfdaşlardır"

"Gürcüstanın Baş Naziri kimi Azərbaycana ilk səfərim heç də təsadüfi deyildi. Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər ikitərəfli və regional əməkdaşlıq çərçivəsindən çıxaraq çox vacib əhəmiyyətli beynəlxalq əməkdaşlıq statusu alıb".

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Baş Naziri Giorgi Qaxariya hökumətin iclasında Azərbaycana səfərini şərh edərkən söyləyib.

Hökumət başçısı deyib ki, bu əməkdaşlıq məhsuldardır və ölkələrimizin maraqlarına xidmət edir. Bu gün regionda baş verən hadisələr ölkələrimizin sabitliyinin və təhlükəsizliyinin təmin edilməsi üçün bizi daha səmərəli əməkdaşlığa sövq edir.

Giorgi Qaxariya vurğulayıb ki, Azərbaycan ilə Gürcüstan çox etibarlı, güclü iqtisadi tərəfdaşlardır. İki ölkə arasında enerji, nəqliyyat sahələrində əməkdaşlıq beynəlxalq əhəmiyyətə malikdir.

# Azərbaycan Milli Məclisi ilə Rusiya Dövlət Duması arasında əməkdaşlıq əlaqələri müzakirə olunub

Oktyabrın 10-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası işləri üzrə və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov ilə görüşüblər.

AZƏRTAC-ın məlumatına görə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, Azərbaycan Rusiya Federasiyası ilə əlaqələrin inkişafına böyük önəm verir. O, ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində atılan addımlardan danışaraq qeyd edib ki, qanunvericilik orqanları arasında da çox sıx əlaqələr mövcuddur. Parlament komitələri qarşılıqlı faydalı əməkdaşlığın inkişafına öz töhfəsini verirlər. Eyni zamanda deputatlarımız beynəlxalq təşkilatlarda da birgə səmərəli fəaliyyət göstərirlər.

Komitə sədri ölkə Prezidenti İlham Əliyevin bu günlərdə Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışının diqqətlə izlənildiyini və bu çıxışın böyük təəssüratlar doğurduğunu diqqətə çatdırıb.

Görüşdə Əli Hüseynli Azərbaycan Milli Məclisi ilə Rusiya Dövlət Duması arasında əməkdaşlıqdan danışıb. Qeyd edilib ki, qarşılıqlı səfərlər təcrübə və informasiya mübadiləsi baxımından çox əhəmiyyətlidir.

Səmimi qəbul üçün təşəkkürünü bildirən qonaq Azərbaycanda fəaliyyət göstərən Rus Kitab Evinin 10 illiyinin qeyd olunduğunu bildirib və bu Kitab Evinin fəaliyyətinə göstərilən dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib. O, həmçinin Rusiyanın Avropa Şurasının Parlament Assambleyasında üzvlüyünün bərpasında Azərbaycan nümayəndə heyətinin göstərdiyi dəstəyin ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Görüşdə Azərbaycan və Rusiya arasında elm, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Milli Məclisdə "Naxçıvan Sazişi-10 il" mövzusunda beynəlxalq konfrans keçirilib



Oktyabrın 10-da Milli Məclisdə "Naxçıvan Sazişi - 10 il" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov 2009-cu il oktyabrın 3-də Azərbaycanın qədim şəhəri Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) əsasının qoyulduğunu bildirib. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin dövlət başçıları Naxçıvan şəhərində bununla bağlı saziş imzalayıblar. Ötən 10 il sübut edib ki, belə bir sazişin imzalanmasına doğrudan da böyük ehtiyac vardı. Bu 10 il ərzində türkdilli dövlətlər arasında əməkdaşlığın müxtəlif formaları inkişaf etdirilib. Onlardan biri də 2008-ci ildən fəaliyyət göstərən Türkdilli Dövlətlərin Parlament Assambleyasıdır.

Ziyafət Əsgərov diqqətə çatdırıb ki, ötən dövrdə mədəniyyət, incəsənət, iqtisadiyyat, ticarət əlaqələri və digər sahələrdə əməkdaşlığımız inkişaf edib və hesab edirəm ki, bu işlər bundan sonra daha da uğurla davam edəcək.

Bildirilib ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Şərq və Qərb sivilizasiyaları arasında mənəvi körpü rolunu oynamış türkdilli xalqlar tarix səhnəsində yenidən mütəşəkkil qüvvə kimi çıxış etməyə başlayıb. Türkdilli xalqların inteqrasiyası yolunda Ümummilli Lider Heydər Əliyevin müdrik təşəbbüsü hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Qeyd olunub ki, 2009-cu ildə yaradılmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının əsas məqsədi türkdilli dövlətlər arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Ötən 10 ildə TDƏŞ-in ciddi siyasi çəkiyə malik təşkilat kimi formalaşmasına imkan yaranıb. Təşkilatın səmərəli fəaliyyəti siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin inkişafına mühüm töhfələr verib.

Bu il oktyabrın 14-də və 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 7-ci Zirvə Görüşü keçiriləcək və təşkilata sədrlik Azərbaycana keçəcək. Cari ilin sentyabrın 4-də Naxçıvan Sazişinin Özbəkistan tərəfindən ratifikasiyasının tamamlanması türkdilli dövlətlərin əlaqələrinin möhkəmlənməsi baxımından mühüm tarixi hadisə oldu.

Ziyafət Əsgərov bu mühüm tarixi hadisə münasibətilə qardaş Özbəkistan dövlətini və xalqını təbrik edib. Qeyd edib ki, Özbəkistanın təşkilata qoşulmasının Naxçıvan Sazişinin 10 illiyinə təsadüf etməsi bizim üçün rəmzi məna daşıyır. 2019-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası üçün digər əlamətdar hadisə Budapeştdə təşkilatın nümayəndəliyinin təsis edilməsi olub. Bir il öncə Macarıstan bu təşkilata müşahidəçi statusu ilə qoşulub. Nümayəndəliyin yaradılması bu təşkilatın Avropaya da genişlənməsi baxımından mühüm hadisədir. Türkdilli xalqlar arasında birliyin möhkəmləndirilməsində şura ilə yanaşı, TÜRKSOY Beynəlxalq Akademiyası və Türk Mədəniyyəti və İrsi Fondu da yaxından iştirak edir.

Bu mühüm fəaliyyətdən parlamentlərimizin də kənarda qalmamasını xüsusi vurğulayan Ziyafət Əsgərov bildirib ki, bu işdə Türkdilli Ölkələrin Parlament Assambleyası da yaxından kömək göstərir. Bu baxımdan TÜRKPA 11 illik fəaliyyəti dövründə bir sıra uğurlara imza atıb. Ziyafət Əsgərov Naxçıvan Sazişinin 10 illiyi münasibətilə təbriklərini çatdırıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurlar arzulayıb.

Sonra çıxış edən TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov bildirib ki, Naxçıvan Sazişinin imzalanması türkdilli ölkələrin əməkdaşlığının inkişafında yeni mərhələ olub. Bu sazişin imzalanması türkdilli ölkələr arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə təkan verib. Bu baxımdan TÜRKPA-nın yaradılması da mühüm addım olub. TÜRKPA parlamentlər arasında təcrübə mübadiləsi, milli qanunvericiliyin yaxından öyrənilməsi, seçkilərin müşahidəsi, müxtəlif layihələrin həyata keçirilməsinə öz töhfələrini verməkdədir. Baş katib bildirib ki, TÜRKPA-nın qarşıdakı sessiyasında bir sıra model qanun layihələrinin hazırlanması və bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Baş katib TÜRKPA-ya verdiyi dəstəyə görə Prezident İlham Əliyevə və Milli Məclisin Sədri Oqtay Əsədova təşəkkürünü bildirib. Qeyd edib ki, TÜRKPA türkdilli dövlətlərin münasibətlərinin müxtəlif sahələrdə inkişafı üçün qanunvericilik dəstəyi verməyə hazırdır. Baş katib Naxçıvan Sazişinin 10 illiyi münasibətilə təbriklərini çatdırıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurlar arzulayıb.

Sonra toplantı panellər üzrə davam etdirilib.

"Naxçıvan Sazişi: Türk birliyinin inkişafının yeni mərhələsi" mövzusunda keçirilən paneldə ilk olaraq Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov çıxış edib. Komitə sədri bildirib ki, 2009-cu il oktyabrın 3-də imzalanan sazişin əsas məqsədi türkdilli dövlətlərin bir araya gəlməsi, bütövlükdə türk dünyası dövlətləri arasında inteqrasiyanın sürətlənməsi idi. Qeyd edilib ki, türk dövlətləri arasındakı münasibətlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Onun iştirakı ilə 4 böyük türk dövləti arasında Türkdilli Dövlətlərin Parlament Assambleyası yaradılıb. Çox sevindiricidir ki, artıq qardaş Özbəkistan da quruma üzv olmağa hazırlaşır. Komitə sədri TÜRKPA-nın tərkibində fəaliyyət göstərən komitələrin işindən, həyata keçirilən layihələrdən danışıb.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli böyük bir coğrafiyanı bölüşən türk xalqlarının ortaq dəyərlərindən, dil və din birliyindən, onların həyat tərzləri, yaşam və məişət fəlsəfələrindən geniş söhbət açıb. Naxçıvan Sazişinin imzalanmasından keçən 10 il ərzində görülən işlərin, qarşılıqlı səfərlərin əhəmiyyəti, türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaların rolu barədə fikirlərini söyləyib.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıtdığı zamandan keçmiş ittifaqın süqutu ilə ayrı-ayrı türk dövlətləri arasında münasibətləri əngəlləyən maneələrin aradan qaldırılması sahəsində xidmətlərindən, onun türkdilli xalqların dövlət başçılarının zirvə görüşlərinə iştirakından danışan İsa Həbibbəyli Beynəlxalq Türk dili Akademiyasının, Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyəti barədə fikirlərini də diqqətə çatdırıb. Akademiyanın Monqolustanda, Sibirdə, Qafqazda türk izləri barədə araşdırma layihələrinin uğurlu nəticələrini vurğulayıb.

Sonra Milli Məclisin deputatları Nizami Cəfərov, Hikmət Məmmədov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının layihə rəhbəri Yıldız Uzakova çıxış edərək türk xalqları arasında əməkdaşlığın milli əsaslarından, qardaş dövlətlər arasında siyasi, iqtisadi, mədəni əməkdaşlığın genişləndirilməsi çərçivəsində görülən işlərdən söz açıblar.

Tədbirdə o da vurğulanıb ki, Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan Azərbaycan-Türkiyə qardaşlığı digər türkdilli dövlətlər üçün yaxşı nümunədir. Çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə keçirilən "Valday" klubunun toplantısında "Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinə diqqət çəkərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində türkdilli dövlətlərin cəhdlərini birləşdirməli olduğunu ifadə ediblər.

Daha sonra tədbir "Türkdilli dövlətlər arasında institusional əməkdaşlığın inkişaf etdirilməsində parlament ölçüsünün rolu: yeni çağırışlar və vəzifələr" mövzusunda müzakirələrlə davam etdirilib.

Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov çıxışında bildirib ki, türkdilli ölkələr arasında əməkdaşlığın vacib istiqamətlərindən biri qanunvericilik sahəsində inteqrasiyadır. Bizim gələcək vəzifələrimizdən birini türkdilli dövlətlərin oxşar hüquqi məkanının formalaşması təşkil edir. Hazırda bu sahədə TÜRKPA çərçivəsində çox mühüm inkişaf müşahidə olunur. Bunun bariz nümunəsi olaraq türkdilli dövlətlərin terrorçuluğa mübarizədə ortaq mövqeyinin müəyyən edilməsini göstərmək olar. Qeyd edilib ki, bir müddət əvvəl müvafiq sənədlər hazırlanıb qurumun aidiyyəti komissiyasına təqdim edilib. Bu sənəddə terrorçuluqla mübarizədə beynəlxalq konvensiyalarda müəyyən olunmuş prinsiplər öz əksini tapıb. Məsələnin mahiyyəti ondan ibarətdir ki, eyni cinayətə münasibətdə türkdilli dövlətlərin ümumi yanaşması tətbiq olunacaq. Digər istiqamət TÜRKPA çərçivəsində model qanunvericilik aktlarının hazırlanmasıdır. Buna uyğun olaraq quruma üzv dövlətlərdə qəbul edilən qanunların bir-birinə uyğunlaşdırılması prosesi həyata keçiriləcək. Növbəti addım beynəlxalq cinayətlərin qarşısının alınması və həmin cinayətlərin cəzalandırılması ilə bağlı qanun layihəsi olacaq. Heç bir dövlət bundan sığortalanmayıb. Azərbaycan da bunun bariz nümunəsidir. Xocalı soyqırımı, digər çoxsaylı hərbi cinayətlərin qarşısının alınmasında türkdilli dövlətlərin ümumi mövqedən çıxış etməsi mühüm əhəmiyyət daşıyır. Hazırda insanlıq əleyhinə cinayətlərlə bağlı konvensiyanın hazırlanması prosesi gedir.

Sonra Sosial qanunvericilik şöbəsinin Əmək qanunvericiliyi sektorunun müdiri Adil Vəliyev, İqtisadi qanunvericilik şöbəsinin Təbii Ehtiyatlar, energetika və ekologiya məsələləri üzrə qanunvericilik sektorunun müdiri Vasif Əmiraslanov mövzu ilə bağlı çıxış ediblər. Məruzəçilər sosial və iqtisadi sahələrdə hazırlanan model qanun layihələrindən danışıblar. "Turizm haqqında", "Elektron ticarət haqqında", "Enerji resurslarından səmərəli istifadə haqqında" sənədlər barədə məlumat veriblər.

İclasa yekun vuran Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi Altınbek Mamayusupov müzakirələrin səmərəli keçdiyini, konfransın quruma üzv ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyini söyləyib.

# İlham Əliyevin növbəti beynəlxalq qələbəsi

## Prezidentin yeni islahatlar kursu qlobal miqyasda yenə də ən yaxşı nümunələrdən biri kimi təqdir edildi

*Əvvəli 1-ci səh.*

Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında Azərbaycanın 8 indikator üzrə yüksəlişi, əlbəttə ki, cənab İlham Əliyevin növbəti beynəlxalq qələbəsidir. Azərbaycan Prezidentinin yeni islahatlar kursu qlobal miqyasda yenə də ən yaxşı nümunələrdən biri kimi etiraf və təqdir edilir. Bu da onu göstərir ki, iqtisadi strategiyasını düzgün müəyyən edən Prezident İlham Əliyev Azərbaycanı doğru yolla irəliyə aparır.

### İnflyasiya və borc dinamikası əsasında hesablanan indikator üzrə irəliləyən yeganə ölkə Azərbaycandır

Ölkəmizin Dünya İqtisadi Forumunun son hesabatındakı 8 indikator üzrə yüksəlişinə nəzər yetirək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı icmalda göstərilir ki, hesabatda hər 12 indikator müxtəlif sub-indikatorlara bölünərək ümumi nəticənin hesablanmasını əks etdirir. Azərbaycan "institutlar" indikatoru üzrə 9 pillə irəliləyərək ölkəmizdə məhkəmə hüquq, hüquq mühafizə orqanları, terrorizmlə mübarizə, polisə etimad, büdcə şəffaflığı və hesabatlılığı, məhkəmələrin müstəqilliyi, media azadlığı, mülkiyyət və intellektual mülkiyyətin qorunması, əmlak idarəetməsi, korporativ idarəetmə, hökumətin uzunmüddətli strateji baxışı və elektron-hökumət istiqamətləri yüksəliş balları əldə edib. Bu sub-indikatorlar "institutlar" indikatorunun tərkib hissəsi olmaqla, son nəticəni hesablayaraq reytinqi müəyyənləşdirir.

"İnfrastruktur" indikatoru ikinci göstərici olmaqla yolların effektivliyi və keyfiyyəti, dəmiryolu və hava yollarında effektivlik, keyfiyyət və əlaqələndirmə, kommunal infrastrukturun keyfiyyəti, elektriklə təchiz olunma səviyyəsi, əhalinin təmiz su ilə təmin olunmasını əks etdirir ki, Azərbaycan 8 pillə irəliləyərək 77,4 balla dünya ölkələri arasında 38-ci mövqedə qərarlaşıb.

Azərbaycan makroiqtisadi vəziyyəti özündə ehtiva edən "makroiqtisadi sabitlik" indikatoru üzrə 23 pillə irəliləyib. Belə ki, inflyasiya və borc dinamikası əsasında hesablanan indikator üzrə bu səviyyədə irəliləyən yeganə ölkə Azərbaycandır.

### Biznes mühitinin inkişafı və institusional islahatların uğurları

Təhsil və insan kapitalının son vəziyyətini əks etdirən indikator üzrə hesabat "bacarıqlar" adı altında hazırlanır. Orta təhsilin keyfiyyəti və təhsil alan şagirdlərin oxuma dövrü, məzun olan şəxslərin şəxsi inkişafları üzərində işləməsi, aktiv əhali arasında rəqəmsal bacarıqlar üzrə ölkəmiz 6 pillə irəliləyib. Bu artım Birinci vitse-prezident Mehriban Əliyevanın təhsil və insan kapitalının inkişafı istiqamətində göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Ticarət və gömrük siyasətini özündə əks etdirən "əmtəə bazarı" göstəricisi 2 sub-indeksə bölünərək müvafiq olaraq ölkədaxili rəqabət və ticarət açıqlığını hesablayır. Göstəricinin hesablanma istiqamətləri bazarlarda inhisarçılıq və onun səviyyəsi, xidmət sektorunda rəqabətlilik, qeyri-tarif tənzimləmə tədbirləri, ticarət tarifləri və sərhəd-keçid məntəqələrində gömrük rəsmiləşdirilməsinin çevikliyindən ibarətdir. Azərbaycan "əmtəə bazarı" göstəricisi üzrə 14 pillə irəliləyərək yuxarıda göstərilən parametrlər üzrə yüksək bal əldə edib.

İşçilərdən və əmək resurslarından səmərəli istifadəni özündə əks etdirən "əmək bazarı" indikatoru üzrə son illər ciddi islahatlar aparılıb ki, bu islahatların bir çox hissəsi qanunvericilik dəyişikliklərindən və institusional islahatlardan ibarətdir. "Əmək bazarı" üzrə Azərbaycan 19 pillə irəliləyərək dünya ölkələri arasında 21-ci mövqedə qərarlaşıb.

Son iki göstərici kimi təhlil edilən "biznesin dinamikliyi" və "innovasiya" üzrə Azərbaycan müvafiq olaraq 8 və 3 pillə irəliləyərək ölkəmizin biznes mühitinin inkişafı istiqaməti üzrə aparılan intensiv islahatlara adekvat cavab verib. Sahibkarlıq risklərinin tənzimlənməsi, ölkə üzrə müflisləşmə, biznesə başlamaq üçün sərf olunan zaman, elm-tədqiqat xərcləri, patent müraciətləri, tədqiqat institutlarının sayı və keyfiyyəti, biznesdə innovativ yeniliklərin tətbiqi üzrə Azərbaycan dünya ölkələri arasında yüksək bal əldə etmiş reytinqə malikdir. Yalnız "biznesin dinamikliyi" üzrə Azərbaycan 141 ölkə arasında 31-ci mövqedə qərarlaşıb.

### Azərbaycan dünyada ən islahatçı 20 ölkə sırasındadır

Əlbəttə ki, hazırlanan hesabatlarda Azərbaycanın mövqeyinin yaxşılaşması birbaşa 2015-ci ildən daha da dərinləşməyə başlayan islahatların nəticəsi olaraq xarakterizə olunmalıdır. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya ölkələri arasında öncül yerlərdən birini tutur. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirirlər.

Sentyabr ayında Dünya Bankının hər il hazırladığı yeni "Doing Business" hesabatında da Azərbaycanda həyata keçirilən islahatların yüksək qiymətləndirilməsi deyilənlərin təsdiqidir. "Doing Business 2020" hesabatında Azərbaycan ötən illə müqayisədə daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilib. Bu hesabatda ölkəmiz əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması, müqavilələrin icrasının təmin edilməsi indikatorları üzrə irəliləmişdi. Sənəddə həmçinin göstərilirdi ki, paytaxtın kadastr xəritəsinin tərtib olunması və Bakıdakı hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, eləcə də mövcud sənədləşmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində daşınmaz əmlakın qeydiyyatı prosesi daha da sürətlənib.

Həm Dünya Bankının "Doing Business" hesabatı, həm də Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi" Prezident İlham Əliyevin islahatlarının dərinləşməsinin qiymətləndirilməsidir. Yəni bu, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan növbəti dövrlərdə də dərinləşmiş islahatları davam etdirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# *Elmar MƏMMƏDYAROV:* "MDB məkanında həll olunmamış münaqişələr regional sabitliyə ciddi təhlükə yaradır"

Aşqabadda MDB Xarici İşlər Nazirləri Şurasının məhdud tərkibli iclası keçirilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov iclasda çıxış edərək MDB-nin iqtisadi və humanitar əməkdaşlığın inkişafı üçün vacib bir platforma olduğunu qeyd edib. Bildirib ki, Azərbaycan bu kontekstdə MDB-nin fəal üzvü olmaqla təşkilatda iştiraka xüsusi əhəmiyyət verir.

Nazir deyib: "MDB Xarici İşlər Nazirləri Şurasının bugünkü iclasının gündəliyində iqtisadi və humanitar sahədə əməkdaşlığın aktual məsələlərinin, həmçinin terrorizm və ekstremizmə qarşı mübarizədə əməkdaşlıq məsələlərinin müzakirəsi nəzərdə tutulur. Bu baxımdan, bugünkü iclasda "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Müstəqil Dövlətlər Birliyi Dövlət başçılarının MDB ölkələri xalqlarına və dünya birliyinə müraciətinin layihəsi haqqında" qərarın imzalanmasının vacibliyini qeyd etmək istərdim.

Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin qeyd edilməsi ərəfəsində Azərbaycanın və Azərbaycan xalqının faşizm üzərində Qələbənin əldə olunmasına verdiyi böyük töhfə xüsusilə qeyd edilməlidir. Müharibədə Azərbaycanın 600 mindən artıq nümayəndəsi iştirak edib, onlardan yarıdan çoxu döyüş bölgələrində həlak olub və itkin düşüb. Azərbaycanın bir çox təmsilçisi yüksək orden və medallarla təltif olunub.

Faşizmə qarşı mübarizədə Azərbaycan xalqı yalnız döyüş bölgələrində deyil, arxa cəbhədə də qəhrəmanlıq, şücaət və fədakarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsi zamanı qələbənin əldə edilməsində Bakı neftinin əvəzsiz rolu olub. Müharibənin 1941-1945-ci illərində Sovet İttifaqında istehsal olunan neftin 70 faizindən çoxu, benzinin 80 faizi və motor yağlarının 90 faizi Azərbaycanın payına düşüb.

Bu baxımdan, "1941-1945-ci illər Böyük Vətən müharibəsində sovet xalqının Qələbəsinin 75 illiyi ilə əlaqədar Müstəqil Dövlətlər Birliyi Dövlət başçılarının Birliyin xalqlarına və dünya ictimaiyyətinə müraciəti layihəsi haqqında" qərarın imzalanmasını nasist ideologiyasına, o cümlədən abidə və memorialların ucaldılmasına və irqçiliyin təbliğatına qarşı mübarizədə xüsusilə əhəmiyyətli hesab edirəm".

Elmar Məmmədyarov bildirib ki, Azərbaycan təşkilatın fəaliyyətinin əsasını təşkil edən humanitar əməkdaşlığa da böyük əhəmiyyət verir. Humanitar əməkdaşlıq məsələləri, dinlərarası dialoq, həmçinin multikulturalizm və sivilizasiyalararası dialoqla əlaqəli olan məsələlər aktual əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, dünyadakı ölkələrin böyük əksəriyyəti çoxkonfessiyalı ölkələr və bir çox millətlərin nümayəndələrinin yaşadığı dövlətlərdir. Monoetnik ölkələr istisnadır. Buna görə də humanitar sahədə əməkdaşlıq, müxtəlif konfessiyaların və etnik qrupların nümayəndələri arasında qarşılıqlı anlaşma hər bir ölkədə milli harmoniya, həm də əməkdaşlığımız üçün vacibdir. Çünki təşkilatımızın daxilində fərqli tarixə, mədəniyyətə, dinə sahib olan ölkələr təmsil olunur və bizi ümumi maraqlarımız birləşdirir, bizi əməkdaşlıq birləşdirir.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan multikulturalizmin təbliğinə böyük əhəmiyyət verir. Azərbaycanda bütün etnik və dini qruplar sülh və əmin-amanlıq şəraitində yaşayır. Son illərdə bir sıra qlobal tədbirlər keçirdik, dialoq və qarşılıqlı anlaşmanı təşviq edən təşəbbüslər irəli sürdük. Bu xüsusda, BMT-nin Baş Assambleyası və Baş katibi tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma kimi tanınan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qeyd edilməlidir.

"Bildiyiniz kimi, ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın prioritet sahələrindən biri də idman sektorudur. Qısa müddət ərzində Azərbaycan özünü beynəlxalq idman yarışlarının mərkəzi kimi doğruldub. Belə ki, son illərdə respublikamızda Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, o cümlədən Dünya və Avropa çempionatları, dünya kubokları və bir çox idman növləri üzrə Qran-Pri yarışları kimi beynəlxalq tədbirlər uğurla həyata keçirilib.

İnanıram ki, humanitar sahədə konstruktiv əməkdaşlığın davam edilməsi bundan sonra da dövlətlərimiz arasında etimadın möhkəmləndirilməsinə və Birliyin inkişafına öz töhfəsini verəcək. Humanitar əlaqələr ilə yanaşı, ölkələrimiz həm çoxtərəfli, həm də ikitərəfli formatlarda iqtisadi əməkdaşlıq potensialını uğurla inkişaf etdirir", - deyə Xarici İşlər naziri vurğulayıb.

Elmar Məmmədyarov bu gün Azərbaycanda bazar iqtisadiyyatının inkişafı üçün bütün imkanların yaradıldığını və böyük uğurların əldə olunduğunu bildirib. Son 15 ildə iqtisadi inkişaf proqramlarının uğurlu icrası sayəsində Azərbaycan iqtisadiyyatı qlobal miqyasda yüksək inkişaf səviyyəsinə çatıb.

Diqqətə çatdırılıb ki, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı hökumətimizin əsas uzunmüddətli hədəfləridir. Bu islahatları birləşdirmək və iqtisadiyyatın rəqabət qabiliyyətini və dayanıqlılığını artırmaq üçün 2021-2025-ci illər dövrünə nəzərdə tutulmuş daha dərin iqtisadi islahatlar proqramının hazırlanmasına başlanıb. Ümumi əlverişli iş mühiti və məqsədyönlü islahatlar biznes və investorlar üçün əlavə imkanlar təmin edəcək.

Nazir bildirib ki, iqtisadi siyasətdə beynəlxalq qarşılıqlı əlaqələrin inkişafı xüsusi yer tutur. Nəqliyyat əlaqələrini təşviq etməklə, Azərbaycan regional qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yönəlmiş səylərə mühüm töhfə verir.

E.Məmmədyarov deyib: "Hesab edirəm ki, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr bölgənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edir və bu sahədə investisiya layihələri üçün yaxşı imkanlar var. Lakin qeyd etmək lazımdır ki, Birlik məkanında həll olunmamış münaqişələr regional sabitliyə ciddi təhlükə yaradır. Bu baxımdan bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, BMT Nizamnaməsi və Helsinki Yekun Aktı əsasında tezliklə sülh yolu ilə həllinin vacibliyinə diqqət çəkmək istərdim.

Azərbaycan münaqişənin ən qısa zamanda siyasi həllinin tərəfdarıdır. Eyni zamanda danışıqlar əbədi davam edə bilməz və güc tətbiqi, işğal və etnik təmizləmə nəticəsində yaranmış vəziyyəti davam etdirməyə və saxlamağa xidmət etməməlidir. Qeyd etmək lazımdır ki, beynəlxalq münaqişələr, etnik təmizləmə və suveren ərazilərin işğalı, beynəlxalq sülh və təhlükəsizliyə, habelə Birliyin bütün ölkələrinin siyasi müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə təhlükə yaradan terrorizm də daxil olmaqla, transsərhəd təhdidlərin səviyyəsini artıran əsas amillərdən biridir. Buna görə, həll olunmamış münaqişələrin nizamlanması məsələsi diqqət və bütün ölkələrin səylərinin birləşdirilməsini tələb edir. Bir təşkilat olaraq MDB-nin topladığı müsbət təcrübə, ümumiyyətlə, ortaq məkanımızın problemlərinin həlli üçün faydalı ola bilər".

# Regionların sosial-iqtisadi simasını dəyişən proqramlar

*Əvvəli 1-ci səh.*

Layihələrin icrası nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Qeyd edək ki, həmin layihələrin icrası sayəsində 1,5 milyard manatlıq məhsul istehsal olunub. Onun da 300 milyon manatlıq hissəsi xarici bazara çıxarılıb.

Bölgələrdə sənaye sahəsi ilə yanaşı, aqrar sektorda da iri müəssisələrin yaradılması istiqamətində səmərəli iş aparılır. Regionlarda 51 aqroparkın yaradılması nəzərdə tutulub. Hazırda 22 aqropark fəaliyyət göstərir, ilin sonuna qədər daha 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası üçün ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq. Qeyd edək ki, həmin layihələrin icrası 4 mindən çox yeni iş yerinin açılmasına imkan yaradır.

Məlumdur ki, regionlarda aqrar sektor üstünlük təşkil edir. Dövlət proqramlarının qəbulu və aparılan islahatlar sayəsində kənd təsərrüfatında məhsul istehsalı sürətlə artmaqda davam edir. Xüsusilə taxılçılıqda qazanılan uğurlar sevindiricidir. Çünki taxılçılıq kənd təsərrüfatında və ölkənin ərzaq təhlükəsizliyində önəmli rola malikdir. Cari ildə 1 milyon 12 min hektarda taxıl əkilib və bu məhsulun istehsalı 40 faiz çoxalıb. Dövlət tərəfindən fermerlərə göstərilən dəstək və müasir texnika ilə təminat sayəsində bu sahədə məhsuldarlıq artıb. Belə ki, orta məhsuldarlıq 30 sentneri ötüb. Müasir texnika və texnologiyalardan daha çox istifadə edən iri fermer təsərrüfatlarında və aqroparklarda məhsuldarlıq 60 sentneri ötüb.

İlin 6 ayında kənd təsərrüfatında əldə edilən iqtisadi göstəricilər rekord səviyyəyə çatıb. Aqrar sahədə məhsul istehsalı 13 faiz artıb. Bitkiçilikdə bu rəqəm 25 faizdir. Bostan məhsulları təxminən 40 faiz, meyvə 20 faizdən çox, barama 25, tərəvəz 14 faiz artıb. Kənd təsərrüfatı məhsullarının xarici bazara ixracı da artmaqda davam edir.

Bir sözlə, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası bölgələrdə bütün göstəricilərin artmasına, ölkənin dayanıqlı və tarazlı inkişafına töhfə verir. Üç dövlət proqramının həyata keçirilməsi əhalinin rifah halının yüksəlməsində və məşğulluğun təmin edilməsində mühüm rol oynayıb.

Dördüncü dövlət proqramı da bölgələrin sosial-iqtisadi inkişafına böyük töhfə verəcək. Həmin proqram üzrə görüləcək işlər əvvəlcədən elmi şəkildə araşdırılıb və onların icra müddəti də dəqiqləşdirilib. Proqram üzrə əsasən elektrik, qaz təchizatı, kənd yollarının çəkilməsi və yenidən qurulması nəzərdə tutulur. Bununla yanaşı, mühüm sosial-iqtisadi əhəmiyyəti olan meliorasiya layihələri də uğurla icra ediləcək. Min kilometrlərlə kollektor-drenaj sistemləri təmizlənəcək, subartezian quyuları qazılacaq, əhalinin içməli və suvarma suyu ilə təminatı daha da yaxşılaşdırılacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Aida İmanquliyeva - 80

**Zəngin ənənələrə malik Azərbaycan şərqşünaslığının ən görkəmli və ən parlaq nümayəndələrindən biri, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın adı təkcə Azərbaycanda deyil, keçmiş Sovet İttifaqında və beynəlxalq miqyasda tanınmış akademiklər Əbdülkərim Əlizadə və Ziya Bünyadov, professorlar Mübariz Əlizadə, Rüstəm Əliyev, Ələsgər Məmmədov, Rəhim Sultanov və Qəzənfər Əliyev kimi nüfuzlu alimlərlə birlikdə çəkilir.**



## Azərbaycan şərqşünaslığının görkəmli nümayəndəsi

Aida xanım 1939-cu il oktyabr ayının 10-da jurnalistikamızın patriarxlarından biri, uzun müddət "Bakı" və "Baku" qəzetlərinin redaktoru olmuş unudulmaz pedaqoq, Əməkdar elm xadimi Nəsir İmanquliyevin ailəsində dünyaya göz açmışdır. Uşaqlığından biliyə, savada can atması onun 1957-ci ildə orta məktəbi qızıl medalla bitirməsi ilə nəticələnmişdir. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin ilk ərəbşünas məzunlarından biri olan bu gənc xanım dərhal elm aləminə qədəm qoyur və 1966-cı ildə Moskvada SSRİ EA Şərqşünaslıq İnstitutunda namizədlik dissertasiyası müdafiə edir. Həmin ildən o, Azərbaycan EA Şərqşünaslıq İnstitutunda işə başlamış və zaman keçdikcə institutda Ərəb filologiyası şöbəsinin müdiri, elmi işlər üzrə direktor müavini, nəhayət, 1991-ci ildən ömrünün sonunadək direktor vəzifələrində çalışmışdır.

1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək ilk azərbaycanlı qadın-ərəbşünas elmlər doktoru olmuş və sonra professor adı almışdır.

Aida xanımın elmi fəaliyyəti əsasən yeni ərəb ədəbiyyatının bir qolu kimi məhcər (mühacirət) ədəbiyyatı, yəni XIX əsrin sonlarında Suriya və Livanda çətin həyat şəraiti və siyasi vəziyyət üzündən Amerikaya kütləvi köç etmiş əhalinin arasındakı ədib və şairlərin bədii irsi ilə bağlıdır. Dünya şərqşünaslarından birinci dəfə bu mövzuya qısa oçerklərlə məşhur rus alimi, akademik Kraçkovski toxunmuş, sonralar Dolinina, Ode-Vasilyeva, Kuteliya, Markov, Levin, Tazetdinova, Muminov və Bilık "Suriya-Amerika məktəbi"nin banilərindən Cübran Xəlil Cübran, Əmin ər-Reyhani və Mixail Nüaymənin yaradıcılığının ayrı-ayrı sahələrinə tədqiqat işləri və dissertasiyalar həsr etmişlər.

Ərəb ölkələrində də bu qəbildən elmi əsərlər nəşr olunmuşdur. Lakin Aida xanımın göstərdiyi kimi, onların əksəriyyəti faktların sadalanmasından və icmaldan ibarətdir. Təkcə Ehsan Abbas və Məhəmməd Yusif Nəcminin "Ərəb poeziyası mühacirətdə" kitabı müəyyən dərəcədə maraq doğurur.

Qərbi Avropa ərəbşünaslığında nə "Suriya-Amerika məktəbi", nə də onun aparıcı şəxsiyyətləri haqqında xüsusi tədqiqatlar mövcud deyildir.

Görkəmli şərqşünasımız məhcər ədəbiyyatını sistemli şəkildə bir toplu kimi dərindən öyrənərək onun qabaqcıl nümayəndələrinin maarifçilikdən Avropa romantizmi, Amerika transsendentalizmi və rus tənqidi realizminə üz tutduqlarını elmi şəkildə sübuta yetirmiş, gələcək araşdırmalar üçün yeni üfüqlər açmışdır.

Mühacir ərəb yazıçıları çoxsaylı bədii əsərlər yaratmış, mətbu orqanlar və ədəbi cəmiyyətlər təşkil etmişlər. Professor Aida İmanquliyevanın 1975-ci ildə Moskvada nəşr edilmiş ilk monoqrafiyasında həmin ədəbi təşkilatların birindən - "Qələmlər cəmiyyəti"ndən və onun ən tanınmış üzvlərindən biri Mixail Nüaymədən bəhs olunur.

Alimin növbəti kitabında məhcər ədəbiyyatının başqa bir məşhur nümayəndəsinin - Cübran Xəlil Cübranın yaradıcılığı işıqlandırılır. Aida xanımın son əsəri "Yeni ərəb ədəbiyyatının korifeyləri" adlanır. Bu monumental tədqiqat işində müəllif ərəb məhcər ədəbiyyatının ümumi xarakteristikasını, onun görkəmli təmsilçilərinin - Cübran Xəlil Cübran, Əmin ər-Reyhani, Mixail Nüaymə və başqalarının bədii irsini zərgər gözü ilə nəzərdən keçirərək dünyanın müxtəlif ədəbi cərəyan və üslublarının yeni ərəb ədəbiyyatına təsirini aşkara çıxarmışdır.

Belə bir qənaətə gəlmək üçün böyük zəhmət və erudisiya tələb olunurdu. Alim yalnız "Suriya-Amerika məktəbi"nin ədib və şairlərinin əsərlərini dərindən təhlil etməmiş, eyni zamanda onları Amerika romantikləri Emerson, Toro və Uitmenin, avropalılar Bayron, Hüqo, Şelli, Bleyk, Nitşe və başqalarının, həmçinin Belinski, Tolstoy, Turgenev, Çexov və digərlərinin yaradıcılığı ilə müqayisəli şəkildə vermişdir.

Aida xanım mühacir yazıçıların istifadə etdikləri, ərəb ədəbiyyatı üçün yeni olan janrlar - etüd, oçerk, esse və novella, xüsusilə mənsur şeir haqqında maraqlı fikirlər söyləmişdir.

Cəsarətlə demək olar ki, alimin üç kitabı və 70-dən çox məqaləsinin əksəriyyəti ədəbiyyat nəzəriyyəsini öyrənənlər üçün də çox dəyərlidir. Təsadüfi deyil ki, Aida xanımın rus dilində nəşr etdirdiyi "Yeni ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyası sonralar Azərbaycan, türk, ingilis, gürcü və ərəb dillərinə tərcümə olunmuşdur. Əsərin ərəb aləmində böyük rəğbətlə qarşılanması xüsusi qeyd edilməlidir.

Aida xanımın elmi fəaliyyəti yalnız ABŞ-da və əsasən Nyu York şəhərində meydana gəlmiş məhcər ədəbiyyatı ilə məhdudlaşmır. O, Cənubi Amerikaya - Braziliya və Argentinaya köçmüş ərəb yazıçılarını da diqqətdən kənarda qoymamış, orada yaradılmış ədəbi cəmiyyətlər və onların üzvləri haqqında bir sıra elmi məqalələr qələmə almışdır. Alim şərqşünaslığımızda ilk dəfə həmin təşkilatlardan "Rifaq əl-Məərri" və "Əndəlus cəmiyyəti"nin işini hərtərəfli araşdırmış, şair və ediblərdən İlyas Fərhad, Mişel Məluf, Şair Qərəvi, Fauzi Məluf, Tofiq Daun, Həbib Məsud, Corc Həssun və onlarla digərlərinə məxsus əsərlərin təhlilindən sonra Şimali Amerika məhcər ədəbiyyatından fərqli olaraq, onların təqlidçiliyə, mühafizəkarlığa daha çox üstünlük verdiklərini üzə çıxarmışdır.

Professor Aida İmanquliyeva müasir ərəb ədəbiyyatının tanınmış nümayəndələrinə də oçerklər həsr etmiş, onların yaradıcılıq xüsusiyyətləri haqqında Azərbaycan oxucularına dəyərli məlumatlar vermişdir. Bunların arasında mütərəqqi Livan şairi Mişel Süleyman, İraqın poeziya ustadları Cəmil Sidqi Zəhavi, Məruf Rusafi, Məhəmməd Mehdi Cəvahiri, Məhəmməd Saleh Bəhrül-Ülum, o dövrün nisbətən gənc yazarları Bülənd Heydəri, Əbdülvahhab Bəyati, Zunnun Əyyub, Edmon Səbri, Qaib Fərman və başqaları vardır.

Əsas tədqiqat obyekti yeni ərəb ədəbiyyatı olsa da, Aida xanım iki böyük həcmli məqaləsində ("İspaniyada ərəb ədəbiyyatının yaranması və inkişafı tarixinə dair", "Ərəb Əndəlus ədəbiyyatının bəzi xüsusiyyətləri haqqında (X-XI əsrlər)") orta əsrlərə müraciət etmişdir. Belə ki, xilafət orduları 710-cu ildən etibarən İspaniya torpaqlarının fəthinə başlamış, 750-ci ildə Əməvilər sülaləsi Abbasilər tərəfindən devrildikdən sonra orada hakimiyyətini möhkəmlətmiş, Qərbdə ərəb ədəbiyyatı və mədəniyyətinin təməlini qoymuşdur. Müəllif Əndəlus dövlətinin tarixinə dair bir çox maraqlı faktları qeyd etmiş, əndəluslu ədib və şairlərin yaradıcılığını konkret şərh etmişdir. Alim İbn Əbd Rəbbihi (860-940), İbn Hani (937-973) İbn Şüheyd (992-1035), İbn Həzm (994-1063), İbn Zeydun (1003-1071), İbn Həmdis (1055-1132), İbn Xəfacə (1058-1138) və Əbu Bəkr ibn Quzmanın (1080-1160) poeziya nümunələrini araşdıraraq mədhiyyə, mərsiyə, nəsib və digər janrlarla yanaşı, vəsfin daha geniş vüsət aldığını qeyd edir, ərəb ədəbi mühitinin nəinki yerli İspaniya, hətta başqa qonşu ölkələrin ədəbiyyatına təsirini də izləyir. Eyni zamanda ispan şeirinin təsiri altında Şərq üçün yeni olan müvəşşəh forması da meydana çıxır ki, onun ərəb dilində yaradıcısı ibn Quzman sayılır. Tədqiqatçı müvəşşəhin strukturunu, qafiyə sistemini ustalıqla açıqlayır. XIII əsrdən sonra bu formanın yerini yeni janr - zəcəl xalq nəğməsi tutur.

Professor Aida İmanquliyeva Əndəlus nəsrindən İbn Əbd Rəbbihinin "əl-İqd əl-fərid" ("Nadir boyunbağı"), İbn Bəssamın "əz-Zəxirə fi məhasin əhli-l-Cəzirə" ("əl-Cəzirə əhlinin gözəlliyinə dair xəzinə") və İbn Şüheydin "ət-Təvabi vəz-zəvabi" ("Cinlər və şeytanlar") əsərlərini misal gətirir. Müəllif xüsusən İbn Əbd Rəbbihinin antologiyasını ərəb ədəbiyyatının ən mühüm mənbələrindən hesab edərək onun quruluşu və məzmunundan söhbət açır.

Ümumiyyətlə, görkəmli şərqşünasımızın elmi yaradıcılıq palitrası çox rəngarəng və genişdir. Burada onun məqalələrindən bir neçəsinin adlarını çəkmək kifayətdir: "Qorki və ərəb Şərqi", "Ərəb ədəbiyyatında qadın azadlığı problemləri", "Fələstin problemi və müasir ərəb ədəbiyyatı", "Ədəbiyyatımızın qədim kökləri", "Novruz Şərq ölkələrində" və s. Alim Azərbaycan-ərəb, rus-ərəb, Qərb-Şərq ədəbi-mədəni əlaqələri haqqında da silsilə yazılar dərc etdirmişdir.

Aida xanımın tərcüməçilik fəaliyyətini də ayrıca qeyd etmək lazımdır. Ərəb dilindən çevirdiyi Mixail Nüaymə (Livan), Süheyl İdris (Livan), Mahmud Zahir (İraq), Sahib Camal (İraq), Məhəmməd Dib (Əlcəzair) və Macid Zeyyib Qənmanın (İordaniya) hekayə və novellaları onun istedadlı qələm ustası olmasına dəlalət edir. Aida xanım Azərbaycan mətnlərinin orijinallara tam uyğunluğunu saxlamaqla dilimizin bədii ifadə vasitələrindən və incəliklərindən məharətlə faydalanmışdır.

Alim Şərq filologiyası sahəsində bir çox elmi əsərlərin və topluların redaktoru olmuş, ərəb hekayə və şeirlərinin Azərbaycan dilinə tərcümələrindən ibarət kitabların nəşrini təşkil etmiş, onlara geniş ön söz yazmışdır.

Professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq elmini yaxın və uzaq xarici ölkələrdə (Moskva, Kiyev, Poltava, Sankt-Peterbuq, Hamburq və s.) ləyaqətlə təmsil etmişdir.

Alim elmi-təşkilati fəaliyyətində ərəbşünas kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlamışdır. Onun rəhbəri olduğu Ərəb filologiyası şöbəsində qısa müddətdə 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilmişdir.

Professor Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Yazıçılar Birliyinin üzvü idi.

Elmi və ictimai vəzifələrinin çoxluğuna baxmayaraq, Aida xanım doğma şərqşünaslıq fakültəsini unutmamış, uzun illər ərəb ədəbiyyatı tarixi fənnindən yüksək səviyyədə mühazirələr oxumuş, yeni ərəbşünaslar nəslinin yetişməsində səmərəli xidmət göstərmişdir.

Amansız ölüm professor Aida İmanquliyevanı aramızdan çox tez - 19 sentyabr 1992-ci ildə apardı. Əgər o, heç olmasa, bir neçə onillik də yaşasaydı, nə qədər dəyərli tədqiqatlar nəşr etdirər, özünün böyük gənc ərəbşünaslar məktəbini yaradardı. Yalnız bir məqamla təsəlli tapmaq mümkündür: Aida xanımın yadigar qoyduğu əsərlər də kifayətdir ki, onun adı elmimizin, xüsusilə şərqşünaslığımızın tarixində böyük hərflərlə yazılsın.

***Vasim MƏMMƏDƏLİYEV,***
***BDU-nun Ərəb filologiyası kafedrasının müdiri, akademik***
***Elxan ƏZİZOV,***
***Şərqşünaslıq fakültəsinin dekanı, professor***

## Görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsi yad edilib

Oktyabrın 10-da görkəmli şərqşünas alim Aida İmanquliyevanın 80 illiyi münasibətilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi bir qrup ictimaiyyət nümayəndəsi ilə birlikdə II Fəxri xiyabanda onun məzarını ziyarət edib, xatirəsini ehtiramla anıb. Azərbaycanda şərqşünaslıq elminin inkişafında misilsiz xidmətləri olan alimin məzarı önünə gül dəstələri düzülüb.



AZƏRTAC xəbər verir ki, dövlət komitəsinin sədri Hicran Hüseynova Aida İmanquliyevanın zəngin elmi fəaliyyətindən, şərqşünaslığın inkişafındakı müstəsna xidmətlərindən danışıb. Qeyd edilib ki, Aida xanımın həyatdan vaxtsız gedişi hamı üçün gözlənilməz oldu, lakin zaman göstərdi ki, özünəməxsus ideyaya və onu ifadə etmək qabiliyyətinə, elmi düşüncəyə malik Azərbaycan qadını yaddaşlarda əbədi yaşayır.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova bildirib ki, çoxşaxəli elmi fəaliyyəti və fundamental tədqiqatları ilə şərqşünaslıq elminə mühüm töhfələr verən Aida İmanquliyeva təkcə Azərbaycan şərqşünaslığını deyil, eyni zamanda dünya şərqşünaslığını zənginləşdirib və inkişaf etdirib.



Milli Azərbaycan Tarixi Muzeyinin direktoru Nailə Vəlixanlı özündən sonra zəngin elmi irs qoyan Aida İmanquliyevanın istedadı, təşkilatçılıq qabiliyyəti və pedaqoji fəaliyyəti özündə birləşdirən alimlərdən və müasir ərəb ədəbiyyatının ən nüfuzlu tədqiqatçılarından biri kimi şərqşünaslıq elminin tarixinə əbədi daxil olan azsaylı mütəxəssislərdən olduğunu diqqətə çatdırıb.

## Milli Kitabxanada "Aida İmanquliyeva - görkəmli şərqşünas alim" adlı kitab sərgisi açılıb

Oktyabrın 10-da M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Aida İmanquliyeva - görkəmli şərqşünas alim" adlı kitab sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgi Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşıb.

Sərginin açılışından öncə Milli Kitabxananın direktoru Kərim Tahirov görkəmli alim Aida İmanquliyevanın həyat və yaradıcılığından söz açıb. Bildirib ki, 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olan Aida İmanquliyeva 1957-ci ildə Bakı şəhəri 132 nömrəli






orta məktəbi qızıl medalla bitirib və Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. Universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. İyirmi yeddi yaşında namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. İstedadı, zəhmətsevərliyi hesabına kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, direktor vəzifəsinədək yüksəlib. Qeyd edilib ki, onun dərin nəzəri bilikləri, analitik təfəkkürü, zəngin mütaliəsi, bir neçə Şərq və Qərb dillərini bilməsi apardığı tədqiqatların uğurunu şərtləndirən əsas amillər idi. Aida xanım elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrlar hazırlanmasına böyük diqqət yetirib. Onun rəhbəri olduğu Ərəb filologiyası şöbəsində qısa müddətdə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilib. Vurğulanıb ki, Aida xanım ərəb mühacir ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı sayılırdı. Bunu nəinki Azərbaycan və keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları belə etiraf edirlər.

"Aida xanımın daha bir xidməti cəmiyyət üçün layiqli övladlar böyütməsi olub. Həyatını elmə həsr edən böyük qızı Nərgiz Paşayeva M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Bu ailənin ikinci qızı - Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti bu gün dövlətimiz və dövlətçiliyimiz üçün çoxsaylı işlər görür" deyə K.Tahirov söyləyib.

Milli Kitabxananın direktor müavini Ədibə İsmayılova çıxış edərək Aida İmanquliyevanın zəngin elmi fəaliyyətindən, şərqşünaslığın inkişafındakı müstəsna xidmətlərindən danışıb. Qeyd edilib ki, Aida xanımın həyatdan vaxtsız gedişi hamı üçün gözlənilməz oldu. Buna baxmayaraq, özünəməxsus ideyaya və onu ifadə etmək qabiliyyətinə, elmi düşüncəyə malik görkəmli alimimiz yaddaşlarda əbədi yaşayır.

Sonra qonaqlar sərgi ilə yaxından tanış olublar.

Sərgi bir həftə davam edəcək.

# Bakıda Türkmənistanın milli bayramı qeyd edilib

Oktyabrın 10-da Türkmənistanın Azərbaycandakı səfirliyi tərəfindən bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Türkmənistanın Dövlət himnləri səsləndirilib.

Türkmənistanın ölkəmizdəki səfiri Məkan İşanquliyev tədbirdə çıxış edərək ölkəsinin müstəqillik tarixindən danışıb.



Azərbaycan-Türkmənistan əlaqələrindən bəhs edən diplomat deyib ki, qarşılıqlı münasibətlər bir çox sahələri əhatə edir. Səfir iki ölkə arasındakı münasibətlərin bundan sonra da inkişaf edəcəyinə inamını ifadə edib.

Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov Azərbaycan Hökuməti adından Türkmənistan xalqını əlamətdar bayram münasibətilə təbrik edib. Bildirib ki, 28 illik müstəqilliyi dövründə Türkmənistan böyük uğurlara imza atıb. Türkmənistan Mərkəzi Asiyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilib.

"Dost ölkə olaraq biz sevinirik ki, Türkmənistan inkişaf edir, güclənir", - deyən Baş Nazirin müavini Azərbaycan ilə Türkmənistan arasında yüksək səviyyəli əlaqələrin olduğunu xüsusi vurğulayıb. Ölkələrimiz arasında tarixən dostluq münasibətləri olub. Bu gün iqtisadi və siyasi sahələrdə əlaqələrimiz daha da genişlənir.

Prezident İlham Əliyevin hazırda Türkmənistanda işgüzar səfərdə olduğunu diqqətə çatdıran Əli Əhmədov ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib.

Qəbulda rəsmi şəxslər, deputatlar, diplomatlar, media təmsilçiləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Azərbaycanın və Avstriyanın Daxili İşlər nazirlikləri arasında sıx işgüzar əlaqələr mövcuddur

Oktyabrın 10-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, geniş potensiala malik ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini xatırladan Daxili İşlər naziri onlara ölkə Prezidentinin rəhbərliyi altında respublikamızda həyata keçirilən köklü hüquqi-demokratik və sosial-iqtisadi islahatlar, cinayətkarlıqla mübarizə, sabitliyin bərpası, kriminogen durumun nəzarətə götürülməsi, ictimai qaydanın qorunması, həmçinin DİN-in əsas hüquq və vəzifələri, o cümlədən yol hərəkəti təhlükəsizliyinin təmini barədə məlumat verib.

Azərbaycan-Avstriya münasibətləri barədə danışan nazir V.Eyvazov iki ölkənin Daxili İşlər nazirlikləri arasında sıx işgüzar əlaqələrin mövcudluğunu, bu əməkdaşlığın beynəlxalq hüquqi sənədlər əsasında həyata keçirildiyini qeyd edib. Avropa ölkələrinin polis təşkilatları arasında Avstriya DİN-in ölkəmizin analoji qurumu ilə ikitərəfli əlaqələr quran ilk orqan olduğunu diqqətə çatdıran Vilayət Eyvazov polis təlimi və ixtisasartırma sahəsində iki mühüm sənədin imzalandığını, qarşılıqlı səfərlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini xüsusi vurğulayıb.

Andreas Rayxhardt səmimi görüşə və ətraflı məlumata görə minnətdarlıq edərək ölkəmizin sürətli inkişafından, Bakının dünyanın ən gözəl və ən təhlükəsiz şəhərlərindən biri olmasından, burada özünü çox rahat və təhlükəsiz hiss etməsindən məmnunluğunu ifadə edib. O, bütün sahələrdə, o cümlədən yeni informasiya texnologiyalarının tətbiqi, hüquq mühafizə fəaliyyəti sahəsində təcrübə və məlumat mübadiləsinin əhəmiyyətini nəzərə çatdıraraq ikitərəfli əlaqələrin daha da genişlənməsinə öz töhfələrini verəcəyini bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

Avstriyanın Azərbaycandakı, ölkəmizin isə Avstriyadakı fövqəladə və səlahiyyətli səfirləri - Bernd Bayerl və Qalib İsrafilov görüşdə iştirak ediblər.

# Bakıda 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisi açılıb





Oktyabrın 10-da Bakı Ekspo Mərkəzində 13-cü Azərbaycan Beynəlxalq Təhsil "EduExpo" sərgisinin açılışı olub. AZƏRTAC xəbər verir ki, açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil müəssisələrinin rəhbərləri, müxtəlif təhsil xidmətləri göstərən qurumların nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Mərasimdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov bildirib ki, builki sərgidə dünyanın 22 ölkəsini təmsil edən 150-dən çox təhsil strukturu iştirak edir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın imzalanmasından ötən dövr ərzində təhsilin müxtəlif pillələrini əhatə edən istiqamətlər üzrə bir sıra mühüm dövlət sənədləri qəbul edilib və layihələr həyata keçirilib. Əldə edilmiş nailiyyətlər təhsil müəssisələrinin, təhsil işçilərinin, müəllimlərin səyləri və bütövlükdə cəmiyyətin verdiyi töhfə nəticəsində mümkün olub.

Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Selçukun sərgidə iştirakına toxunan Ceyhun Bayramov deyib ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri təhsil sahəsində də öz əksini tapmalı, bir millət olan bu iki dövlətin təhsil mütəxəssisləri arasında sıx əməkdaşlıq qurulmalıdır. Nazir qeyd edib ki, sərgi Azərbaycan və Türkiyə arasında olan əməkdaşlığın bir qədər də dərinləşməsi və zənginləşməsinə xidmət edəcək.

Ceyhun Bayramov bildirib ki, nazirliyin son illərdə təhsilin inkişafı sahəsində həyata keçirdiyi islahatlar və əldə olunan nailiyyətlər sərgidə ayrı-ayrı pavilyonlarda əhatəli şəkildə öz əksini tapıb. Təhsil naziri sərginin gələcək hədəflərə nail olunması baxımından qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə, təhsilin və məşğulluğun inkişafı sahəsində yeni layihələrin həyata keçirilməsinə dəyərli töhfə verəcəyini əlavə edib.

Nazir çıxışının sonunda sərginin təşkilində əməyi keçən hər kəsə təşəkkür edib və uğurlar arzulayıb.

Türkiyənin Milli Təhsil naziri Ziya Selçuk ölkələrimiz arasında səmimi, dost və qardaş münasibətlərdən söz açıb. Daha sonra iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində görülən işlər haqqında ətraflı məlumat verib. Qeyd edib ki, hazırda iki ölkə arasında təhsil sahəsində çoxsahəli və inkişaf etmiş əlaqələr mövcuddur.

Ziya Selçuk Azərbaycanda göstərilən qonaqpərvərliyə görə təşəkkür edib və bu səfərin təhsil sahəsində əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəyinə inamını ifadə edib.

Avropa Komissiyasında "NEAR" Baş direktorluğunun bölmə rəhbəri Vassilis Maraqos builki sərgidə Avropa İttifaqının birləşmiş stendinin debüt etdiyini qeyd edib. O bildirib ki, Avropa İttifaqının stendində Avstriya, Çex Respublikası, Fransa, İsveç, Latviya, Litva, Macarıstan, Niderland, Polşa və Rumıniya kimi ölkələrin səfirlik və universitetləri təmsil olunur.

Üç gün davam edəcək sərgiyə giriş IX-XI sinif şagirdləri, abituriyent, tələbə və onların valideynləri, təhsil işçiləri üçün açıqdır.

13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisinin baş sponsoru "Kapital Bank"dır.

Sərgi Təhsil Nazirliyi, Azərbaycanda İxracatın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənir. "Caspian Event Organisers" şirkəti sərginin təşkilatçısıdır. 2019-cu ildə sərginin tərəfdaşları arasında "Qafqaz Hotels and Resorts", "Intourist Hotel" və "Boulevard Hotel" mehmanxanaları, eləcə də "Greenwich Travel Club" turoperatoru yer alır.

# "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib





Oktyabrın 10-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.



Yenilənmiş həyət Suraxanı rayonu, Hövsan qəsəbəsi, İlqar Əhlimanov küçəsi 7, 8, 9,10, 10A, 10V, 10B ünvanlarında 4 200 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, velosiped yolu çəkilib.

Eyni zamanda ərazidə 12 söhbətgah və ahıllar evi inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib və 2 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Suraxanı rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuz üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Leyla Əliyeva Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkda olub











Oktyabrın 10-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva paytaxtın Füzuli küçəsi boyunca salınan Mərkəzi Parka gəlib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva şəhərin simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət etmək məqsədilə salınan yeni parkda yaradılan şəraitlə tanış olub.

Leyla Əliyeva ərazisi 20 hektar olan parkda IDEA İctimai Birliyinin könüllüləri ilə birgə kütləvi ağacəkmə aksiyasında iştirak edib.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 10-da Biləsuvar, Oğuz, Ağdam, Ağstafa və Xocavənd rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerindəcə həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunacaq. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi, ümumilikdə, 4,2 milyon vətəndaşı əhatə edəcək. Minimum pensiya 72 faiz artırılıb. Beləliklə, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə, 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid olan insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunub. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# YAP Nəsimi rayon təşkilatı "Erməni yalanının növbəti ifşası" adlı kitabın təqdimatını keçirib



Oktyabrın 10-da Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində YAP Nəsimi rayon təşkilatı "Erməni yalanının növbəti ifşası" adlı kitabın və bunun əsasında hazırlanmış videoçarxın təqdimatını keçirib.

AZƏRTAC xəbər verir ki, YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Azərbaycan Prezidenti İlham Əliyevin müntəzəm olaraq beynəlxalq kürsülərdə erməni yalanlarını, bu yalanları uyduran erməni xalqının xəstə təxəyyüllü rəhbərlərini ifşa etdiyini söyləyib. Bu günlərdə Prezident İlham Əliyev Rusiyanın Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək növbəti erməni yalanını ifşa etdi. Bu tarixi çıxış YAP Nəsimi rayon təşkilatı tərəfindən 10-a yaxın xarici dilə tərcümə edilərək nəşr olunub.

YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov 30 ilə yaxındır ki, Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkarlıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu bildirib. O əlavə edib ki, işğalçı ölkə eyni zamanda uzun illər ölkəmizə qarşı böhtan və şər kampaniyaları da apararaq dövlətimizin imicinə kölgə salmağa çalışır. Siyavuş Novruzov deyib ki, Ümummilli Lider Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından erməni yalanlarını dünya ictimaiyyətinə çatdırırdı. Bu gün bu siyasi missiya Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Dövlət başçısı "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında konkret olaraq Qarabağın tarixi və əzəli Azərbaycan torpağı olduğunu bir daha bəyan etdi. Prezident "Qarabağ Azərbaycandır və nida işarəsi" söyləməklə bir daha dövlətimizin birmənalı mövqeyini nümayiş etdirdi. Azərbaycanın siyasi arena ilə yanaşı, hərb meydanında da ermənilərə sarsıdıcı zərbə vurduğunu deyən deputat buna misal olaraq Aprel döyüşlərini göstərib.

Sonra YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri Salman Salmanov, birliyin üzvü Nigar Yahyayeva və YAP Gənclər Birliyinin Aparat rəhbəri Fərid Namazov çıxış ediblər.

Daha sonra Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışı ilə bağlı videoçarx nümayiş olunub.

# Azərbaycanın da mükafat aldığı "Pekin EKSPO 2019" botanika sərgisinin bağlanış mərasimi olub

Çinin paytaxtında "Təbiəti qoruyaq, daha yaxşı yaşayaq" mövzusunda keçirilmiş beynəlxalq botanika sərgisi başa çatıb.

AZƏRTAC xəbər verir ki, aprelin 29-da işə başlayan, ümumilikdə 110 dövlətin və beynəlxalq təşkilatın iştirak etdiyi "Pekin EKSPO 2019" beynəlxalq botanika sərgisi müxtəlif ölkələrin bağçılıq, gülçülük, meyvə və tərəvəz yetişdirilməsi sahələrində nailiyyətlərini, habelə milli mədəniyyətlərini nümayiş etdirmək məqsədi daşıyıb. Ümumi sahəsi 503 hektar olan sərgini 162 gün ərzində 9,34 milyon nəfər ziyarət edib. "Pekin EKSPO 2019" sahəsinin böyüklüyünə, iştirakçıların və ziyarətçilərin sayına görə indiyədək keçirilmiş ən böyük botanika sərgisi kimi tarixə düşüb.



Ölkəmiz Pekin beynəlxalq botanika sərgisinin fəal iştirakçısı olub. "Azərbaycan: təbiət və incəsənətin harmoniyası" adlı milli pavilyonun ümumi konsepsiyası ölkəmizin öz tarixinə və ənənələrinə sadiq qalaraq daim inkişafda olduğunu nümayiş etdirib. Pavilyonun spiralvari forması Azərbaycanın davamlı, sabit inkişafını və dinamikliyini, eksteryerdə qoyulan nar ağacı isə ölkənin məhsuldar gələcəyini xarakterizə edib. Pavilyonun interyer dizaynı ölkəmizin adət-ənənələrini nümayiş etdirib. Azərbaycan xalçalarının timsalında incəsənət və təbiətin yaxın əlaqəsi diqqətə çatdırılıb, ətraf mühitin qorunmasının vacibliyi vurğulanıb. Sərgi ziyarətçiləri Azərbaycan pavilyonunda milli musiqi alətlərimizlə tanış olub, videomateriallar vasitəsilə Azərbaycan musiqisini dinləmək və milli rəqslərimizə baxmaq imkanı əldə ediblər. Burada həmçinin Azərbaycan milli geyimləri, xarıbülbül gülünü rəqəmsal formatda əks etdirən eksponat nümayiş etdirilib.

Sərgidə həmçinin böyük İpək yolunu və Azərbaycanın bu yolun bərpası məqsədilə Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən layihələrini əks etdirən foto-video materiallar və məlumatlar təqdim edilib.

Milli pavilyonumuzdakı xalçalarda istifadə olunan rənglər əsasında hazırlanan landşaft dizaynı, Azərbaycan təbiətinə xas olan 120 ağac və gül kolları, böyük ölçülü fotostendlər maraqla qarşılanıb.

Təşkilat komitəsinin qərarına əsasən, Azərbaycan milli pavilyonu eksteryer-interyer konsepsiyası və dizaynına görə "Pekin EKSPO 2019" sərgisinin "Xüsusi mükafat"ına (ikinci yer) layiq görülüb. Azərbaycanla yanaşı, bu mükafatı Türkiyə, Belçika, Sinqapur, Niderland və Birləşmiş Ərəb Əmirlikləri də alıb.

Oktyabrın 9-da sərginin rəsmi bağlanış mərasimi keçirilib. Azərbaycan da daxil olmaqla məhdud sayda ölkə fəxri qonaq qismində mərasimdə iştirak edib.

Baş Nazirin müavini Hacıbala Abutalıbov mərasimdən əvvəl Azərbaycan pavilyonunu ziyarət edib, sərginin fəxri qonaqlar kitabına təbriklərini yazıb.

Bağlanış mərasimində Çin Dövlət Şurasının Sədri (Baş Nazir) Li Keçyan çıxış edərək sərgidə iştirak etmiş ölkələrə minnətdarlığını bildirib. Bildirib ki, aprelin 29-da işə başlayan sərgi çərçivəsində ümumilikdə 3284 tədbir, o cümlədən ölkələrin milli günləri, mədəni proqramlar, festivallar keçirilib. Sərginin keçirildiyi ərazinin bundan sonra ekoloji park kimi istifadə olunmasına qərar verilib.

Beynəlxalq Sərgilər Bürosunun Baş katibi Visente Lossertales təşkilatın bayrağını növbəti beynəlxalq botanika sərgisinə evsahibliyi edəcək Qətər tərəfinə təqdim edib. Mərasim konsert proqramı ilə başa çatıb.

Xatırladaq ki, Azərbaycan sərgidə Heydər Əliyev Mərkəzinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə təmsil olunub.

# Bakıda "Mənəvi dəyərlər və dövlət siyasəti" mövzusunda konfrans



Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının iki illiyi münasibətilə oktyabrın 10-da "Mənəvi dəyərlər və dövlət siyasəti" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda əvvəlcə fondun fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov fondun ötən iki il müddətində gördüyü işlərdən, qarşıya qoyulan vəzifələrdən danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 oktyabr tarixli fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu ölkəmizdə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə yaradılıb.

İcraçı direktor bildirib ki, iki il ərzində müxtəlif dövlət qurumları ilə, həmçinin qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq əlaqələri qurulub. Fond tərəfindən həyata keçirilən layihələrdən danışan Mehman İsmayılov deyib: "Fondun "Vəhdət dəyərimizdir", "Dəyərlərimizi öyrənək", "Yaxşılıq unudulmur" və digər layihələri çərçivəsində Bakıda və ölkəmizin regionlarında müxtəlif tədbirlər reallaşdırılıb. Bizim Təhsil Nazirliyi ilə əməkdaşlığımız çərçivəsində orta məktəblərdə müxtəlif müsabiqələr, maarifləndirici tədbirlər təşkil olunub. Həmçinin müxtəlif universitetlərdə konfranslar, seminarlar keçirilib. Eyni zamanda, 2018-ci ilin oktyabr ayından etibarən "ASAN Radio"da "Mənəvi dəyərlər" verilişi yayımlanır. Bu müddət ərzində dini icmalarla birgə müxtəlif maarifləndirmə tədbirləri təşkil olunub".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda çıxış edərək fondun kollektivini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar diləyib. Fondun yaradılmasını Azərbaycanın ictimai-siyasi həyatında çox mühüm hadisə kimi dəyərləndirən Mübariz Qurbanlı deyib: "Prezident İlham Əliyevin fərmanı ilə yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu xalqımızın mənəvi dəyərlərinin qorunması və təbliği sahəsində atılan önəmli addımdır. Əlbəttə, xalqımıza məxsus dini, mənəvi, tarixi dəyərlər müxtəlif qurumlar tərəfindən öyrənilir, tədqiq və təbliğ olunur. Lakin bu istiqamətdə ümumi işləri həyata keçirən qurumun yaradılmasına da ehtiyac var idi".

Komitə sədri bildirib ki, bu qurumun fəaliyyətində gənc nəslin zərərli vərdişlərdən uzaqlaşdırılması istiqamətində görülən işlər mühüm yer tutur. O, fondun təşəbbüsü ilə reallaşdırılan layihələrin cəmiyyətimizin inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdırıb, ötən iki ildəki fəaliyyətin ən yüksək qiymətə layiq olduğunu bildirib. Ötən iki ildə çox mühüm işlər görülüb. Müxtəlif sənədli filmlər çəkilib, videoçarxlar hazırlanıb, maarifləndirici tədbirlər keçirilib, "ASAN Radio"da yayımlanan "Mənəvi dəyərlər" verilişi ciddi səmərə verir. Təhsil ocaqlarında müxtəlif önəmli layihələr reallaşdırılıb.

Mübariz Qurbanlı qurumun gələcək fəaliyyətində də mühüm təşəbbüslərlə çıxış edəcəyinə əminliyini ifadə edərək bildirib ki, fondun Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə əməkdaşlığı da çox səmərəlidir. Hesab edirəm ki, gələcəkdə məhz mərkəzlə birgə ölkə xaricində də mənəvi dəyərlərimizin təbliği ilə bağlı işləri həyata keçirmək mümkündür. "Müasir dünyamızda hər bir dövlət, xalq öz dəyərlərini, tarixini, gücünü qoruyub saxlamağa çalışır. Azərbaycan xalqı hər zaman öz dəyərlərinə sadiq olub və onu qoruyub. Bizim ən böyük dəyərlərimiz müstəqilliyimizdir, dövlət atributlarımızdır, adət-ənənələrimizdir, dinimizdir" deyə komitə sədri vurğulayıb.

Mənəvi dəyərlərimizin qorunmasının, gələcək nəsillərə düzgün çatdırılmasının mühüm vəzifə kimi qarşıya qoyulduğunu deyən Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin məsul işçisi Əliheydər Zülfüqarov Mənəvi Dəyərlərin Təbliği Fondunun iki il ərzində müxtəlif sahələrdə uğurlu fəaliyyət göstərdiyini bildirib. Qeyd edib ki, bu qurumun fəaliyyətində xalqımıza məxsus zəngin mənəvi dəyərlərin təbliği işi əsas istiqamətlərdən olub. Bu istiqamətdə gənclərlə aparılan işi, ölkəmiz üçün əlamətdar günlərdə keçirilən tədbirləri, məcburi köçkünlərlə görüşləri xüsusi qeyd etmək lazımdır.

Mənəvi dəyərlərin hər bir xalqın kimliyinin formalaşmasında mühüm rol oynadığını qeyd edən Əliheydər Zülfüqarov bu dəyərlərin heç bir yad təsirlərə məruz qalmadan gələcək nəsillərə ötürülməsinin vacibliyini diqqətə çatdırıb. Dövlət başçısının fərmanı ilə belə bir qurumun yaradılması da Azərbaycan Prezidentinin milli dəyərlərimizin qorunmasına verdiyi önəmin nümunəsidir. Mənəvi Dəyərlərin Təbliği Fondu xalqımıza məxsus dəyərlərin təbliği mexanizminin yaradılmasında da çox ciddi rola malikdir. Fondun "Vəhdət dəyərimizdir" layihəsinin çox səmərəli bir təşəbbüs olduğunu qeyd edən Prezident Administrasiyasının məsul işçisi bildirib ki, ölkəmizin müxtəlif bölgələrində keçirilən bu layihə din xadimlərinin birliyinin daha da möhkəmlənməsinə töhfə verir.

Konfransda çıxış edən fondun Himayəçilər Şurasının üzvü, Milli Məclisin deputatı Sahibə Qafarova dünyada gedən qloballaşma prosesinin müsbət və mənfi istiqamətlərindən danışaraq bildirib ki, bu gün xalqların mənəvi dəyərlərinin assimilyasiya olunması müşahidə olunur. "Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması dövlət başçısının növbəti müdrik addımı idi. Belə bir qurumun yaradılması mənəvi dəyərlərimizin qorunması üçün çox zəruri idi. İki il ərzindəki fəaliyyət fondun mühüm işlər gördüyünü deməyə əsas verir" deyə Sahibə Qafarova vurğulayıb.

Fondun fəaliyyətinin cəmiyyətimiz üçün olduqca faydalı olduğunu söyləyən Milli Məclisin deputatı bildirib ki, gənclərin mənəvi dəyərlərimizlə bağlı maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. İki il ərzində ölkə daxilində fond ciddi işlər görüb. Lakin hesab edirəm ki, bu gün beynəlxalq arenada gündən-günə mövqelərini möhkəmləndirən Azərbaycanın mənəvi dəyərlərinin xaricdə də təbliği çox vacibdir.

Fondun Himayəçilər Şurasının üzvü, Humanitar Elmlər Bölməsinin akademik katibi, akademik Teymur Kərimli fondun qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiyini diqqətə çatdırıb. Xalqımızın tarixən mənəvi dəyərlərə üstünlük verdiyini söyləyən akademik gənc nəslin düzgün formalaşmasında mənəvi dəyərlərin təbliğinin və təşviqinin vacibliyini qeyd edib.

Tədbirdə çıxış edən Himayəçilər Şurasının üzvü, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Mehriban İmanova, İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov, Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Elşad Əliyev, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin üzvü Asif Cahangirov, "Zəfər: Şəhid ailələrinə dəstək" ictimai birliyinin rəhbəri, Aprel şəhidi Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova da fondun iki il ərzindəki fəaliyyətini yüksək qiymətləndiriblər. Bildirilib ki, dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasında, mənəvi dəyərlərin qorunmasında və inkişafında, dövlət-din münasibətləri sahəsində fondun gördüyü işlər çox mühüm əhəmiyyət kəsb edir.

Sonra ötən iki il ərzində Mənəvi Dəyərlərin Təbliği Fondu ilə əməkdaşlıq edən KİV və fondun fəaliyyətində fərqlənən əməkdaşlar mükafatlandırılıblar.

# Bakı Ali Neft Məktəbi Prezident təqaüdçülərinin sayına görə ilk sıralardadır

**Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov 2019-cu ildə BANM-ə daxil olmuş və göstərdikləri yüksək nəticələrə görə Prezident təqaüdünə layiq görülmüş tələbələrlə görüşüb.**



Rektor Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi" haqqında 9 sentyabr 2019-cu il sərəncamına əsasən, Bakı Ali Neft Məktəbinin 23 tələbəsinin bu təqaüdə layiq görüldüyünü qeyd edib. O, ali məktəbin yarandığı ildən bugünə qədər Prezident təqaüdçülərinin sayının 150 nəfərə çatdığını bildirib.

E.Qasımov indiyədək böyük rəqabətin qeydə alındığı I qrupda Bakı Ali Neft Məktəbinin maksimal sayda Prezident təqaüdçüsü ilə təmsil olunduğunu deyib.

"Müvafiq sərəncamla bu il ümumilikdə 102 nəfər Prezident təqaüdçüsü adını qazanıb. Ali məktəbimizin 23 Prezident təqaüdçüsündən 15 nəfər BANM-in "İnformasiya təhlükəsizliyi" ixtisasını, 5 nəfər "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasını, 2 nəfər "Kimya mühəndisliyi" ixtisasını, 1 nəfər isə "Neft-qaz mühəndisliyi" ixtisasını seçib" deyə E.Qasımov əlavə edib.

E.Qasımov hər bir təqaüdçünün ən ali səviyyədə göstərilən bu etimadı doğruldacağına əminliyini ifadə edib. Eyni zamanda o, Prezident təqaüdçülərinin ali məktəbə olan marağını yüksək qiymətləndirib və tələbələrin bu önəmli seçiminin onların gələcək karyerasında böyük rol oynayacağını vurğulayıb.

Prezident təqaüdçülərinin üzərində orta təhsil müəssisələrinin, müəllimlərin və valideynlərin də xüsusi zəhməti olduğunu xatırladan rektor gələcək dərslərində tələbələrə müvəffəqiyyətlər arzulayıb.

Tələbələr isə onların təhsil almaları üçün yaradılmış yüksək şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, BANM-in Prezident təqaüdçülərinin 9-u qız, 14-ü oğlandır. Təqaüdçülər ixtisas seçimində "İnformasiya təhlükəsizliyi" ixtisasına üstünlük veriblər. Təsadüfi deyil ki, bu ixtisas respublika üzrə ən yüksək keçid balı ilə "İlin ixtisası" olub. "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisası da ölkə universitetləri arasında ən yüksək keçid balı olan ixtisas kimi qeydə alınıb.

*"Azərbaycan"*

# Azərbaycandan Gürcüstan və İrana yeni elektrik xətləri çəkilir

## Bu həm də Avropaya enerjinin ixrac imkanını artıracaq

**Elektrik enerjisi mübadiləsinin yaxşılaşdırılması, ixrac imkanlarının artırılması məqsədilə Azərbaycandan qonşu İran və Gürcüstana yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilir.**



Gürcüstan Respublikası ilə elektrik enerjisi mübadiləsində etibarllığı artırmaq və daha çox elektrik enerjisi ixrac etmək, o cümlədən Gürcüstandan tranzit etməklə Avropa bazarına çıxış imkanlarını daha da artırmaq məqsədilə **330 kilovoltluq "Ağstafa-Qardabani"** hava xətti 44 km məsafədə, 2 dövrəli variantda yenidən qurulur. Layihə üzrə quraşdırılacaq 162 ədəd dayaqdan artıq 124 ədədi quraşdırılıb. Hava xəttinin 10 km hissəsində naqillər və 13 km hissəsində optik kabel asılıb.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında enerji mübadiləsinin texniki imkanlarının artırılmasını təmin edəcək **220 kilovoltluq "Masallı-İran Astarası"** arasında isə yeni elektrik verilişi xətti çəkilir. 260 ədəd dayaq quraşdırılması nəzərdə tutulan və 68 km uzunluqda olacaq hava xəttinin artıq 177 ədəd dayağı quraşdırılıb, 8,7 km hissəsində naqillər asılıb.

Bundan başqa, Rusiya ilə enerji mübadiləsinin yaxşılaşdırılması, ixrac imkanlarının artırılması məqsədilə **330 kilovoltluq "Abşeron-Yaşma-Dərbənd"** yeni hava xəttinin çəkilməsi layihələndirilir.

Dövlətlər arasında yeni hava xətlərinin çəkilməsi və ya yenidən qurulması enerji sistemləri arasında əlaqələrin etibarlılığını daha da möhkəmləndirəcək, xətlərin ötürücülük qabiliyyətini yüksəldəcək və beynəlxalq enerji bazarına çıxış potensialımızı daha da artıracaq.

Qeyd edək ki, "Azərenerji" ASC beynəlxalq elektrik verilişi xətləri ilə yanaşı, ölkə daxilində də yüksəkgərginlikli hava xətlərində yenidənqurma işləri həyata keçirir.

*"Azərbaycan"*

# Türk düşmənlərinin Xocalı soyqırımına aid fotolardan siyasi spekulyasiya cəhdi ifşa edilib

Türkiyə Silahlı Qüvvələrinin qoşun birləşmələrinin Fərət çayının şərqində başladığı "Sülh çeşməsi" (Barış Pınarı) antiterror əməliyyatı haqqında dünya ictimaiyyətində yanlış fikir formalaşdırmaqda maraqlı olan düşmən qüvvələr sosial şəbəkədə saxta məlumatlar yaymağa başlayıblar.

AZƏRTAC xəbər verir ki, bu səpkili məlumatların birində 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Xocalı şəhərində törətdikləri soyqırımına aid orijinal fotodan istifadə olunub. Sosial şəbəkə izləyicilərini aldatmağa çalışaraq yazıblar ki, guya bu fotolar Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisində həyata keçirdiyi "Zeytun budağı" və "Fərat qalxanı" antiterror əməliyyatları zamanı çəkilib. Türkiyə KİV fotoların Xocalı soyqırımına aid olduğu barədə məlumat yayaraq yalanı ifşa ediblər.



# "Sülh bulağı" çağlamaya başladı



## Türkiyə Suriyanın şimal-şərqində terrorun kökünü kəsməkdə israrlıdır

Gözlənildiyi kimi, Türkiyə Silahlı Qüvvələri müxalifətçi silahlı birləşmələrdən ibarət Suriya Milli Ordusu ilə birlikdə Suriyanın şimal-şərqində yeni hərbi əməliyyata start vermişdir.

"Barış pınarı" ("Sülh bulağı") şərti adı altında srağagün axşam başlamış əməliyyat çərçivəsində bir neçə vəzifəni həyata keçirmək nəzərdə tutulur: PKK/YPG və İŞİD başda olmaqla Türkiyənin təhlükəsizliyini təhdid edən terrorçu təşkilatları və terrorçuları zərərsizləşdirib Türkiyə-Suriya sərhədi boyunca terror dəhlizinin yaranmasının qarşısını almaq, terrorçulardan təmizlənən ərazidə təhlükəsizlik zonası yaradıb Türkiyədə məskunlaşmış suriyalı qaçqınların bir hissəsini orada yerləşdirmək, nəticə etibarilə regionda sülh və əmin-amanlığı bərqərar etmək. Təhlükəsizlik zonasının özünü Türkiyə-Suriya sərhədinin 480 kilometri boyunca 30 kilometr dərinlikdə yaratmaq planlaşdırılır. Türkiyə rəhbərliyi bəyan etmişdir ki, əməliyyatın gedişində dinc əhalinin zərər çəkməməsi üçün əvvəllər olduğu kimi, bütün tədbirlər görüləcək.

"Sülh bulağı" çağlamaya başlamazdan əvvəl rəsmi Ankara ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Almaniya və İtaliyanı, eləcə də BMT və NATO rəhbərliyini əməliyyat barədə məlumatlandırmışdır. Nəzərə çatdırılmışdır ki, əməliyyat BMT Təhlükəsizlik Şurasının terrorizmlə mübarizə haqqında qərarlarına, BMT Nizamnaməsinin 51-ci maddəsində yer alan "qanuni müdafiə hüququ"na uyğun olaraq və Suriyanın ərazi bütövlüyünə hörmət etməklə həyata keçirilir. Eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putin ilə telefon danışığı aparmışdır. Tərəflər Suriyanın ərazi bütövlüyünü qoruyub saxlamağın vacibliyini vurğulamışlar.

Öz növbəsində ABŞ Prezidenti Donald Tramp bildirmişdir ki, onun ölkəsi "Sülh bulağı"nı dəstəkləmir və bu əməliyyatda iştirak etməyəcək. Əməliyyat başlamazdan əvvəl Vaşinqton Suriyadakı hərbçilərini Türkiyə ilə sərhəddən geri çəkmişdir.

Əməliyyat hərbi aviasiyanın və uzaqvuran topların iştirakı ilə atəş hazırlığı ilə başlamışdır. İlk gündə terrorçuların Fərat çayının şərqində, ilk növbədə Təl Əbyad və Eyn İsa rayonlarında 181 hədəfi, o cümlədən silah-sursat anbarları və sığınacaqları vurulmuşdur. Ardınca Türkiyə ordusunun xüsusi təyinatlı bölmələri və Suriya Milli Ordusunun döyüşçüləri zirehli texnikanın müşayiətilə dövlət sərhədini keçmiş və beləliklə, yerüstü əməliyyat başlamışdır.

Dünən səhər bır sıra kəndlərin terrorçulardan təmizlənməsi, məhmətciyin Təl Əbyada yaxınlaşması barədə məlumat daxil olmuşdur. "Milliyyət" qəzetinin xəbərinə görə, Qamışlı və Rəəs əl-Eyn şəhərlərinin ətrafında terror hədəfləri vurulmuş, 5 terrorçu məhv edilmişdir. Sərhəd boyunca qırıcı təyyarələr fasiləsiz uçur, silahlı və silahsız pilotsuz təyyarələr əməliyyat şəraitində nəzərə çarpan hər hansı dəyişikliyə dərhal reaksiya verir. Türkiyə Müdafiə Nazirliyi bildirmişdir ki, indiyədək 109 terrorçu məhv edilmişdir. Əməliyyat plana uyğun olaraq uğurla davam edir.

Başlamış antiterror əməliyyatı beynəlxalq aləmdə birmənalı reaksiya doğurmamışdır. Nə qədər təəccüblü olsa da, terrorizm kimi bəlanın kökünü kəsmək vəzifəsini qarşıya qoyan bir dövlətə qarşı sözün əsl mənasında beynəlxalq qarayaxma kampaniyası başlamışdır. "Sülh bulağı"nın regionda gərginliyin artmasına gətirib çıxaracağı, humanitar fəlakətlə nəticələnəcəyi, mülki kürd əhalinin zərər görəcəyi, İŞİD-in dirçələcəyi, hətta Suriyanın ərazi bütövlüyünün pozulacağı iddia olunur və s.

Bir çox hallarda olduğu kimi, bu dəfə də ABŞ Prezidenti Donald Trampın bir-birinə zidd bəyanatları diqqəti cəlb etdi. Tramp əməliyyat ərəfəsində xəbərdarlıq etmişdi ki, Türkiyə həddini keçsə, türk iqtisadiyyatını məhv edəcək. ABŞ lideri söhbətin hansı həddən getdiyini dəqiqləşdirməsə də, Türkiyə ordusu Fərat çayının şərqində terrorçuların mövqelərinə atəş açan kimi türk lirəsinin məzənnəsi dərhal aşağı düşdü. Bir qədər sonra Tramp Ankaranı haqlı çıxararaq bəyan etdi ki, Türkiyə olmasaydı, milyonlarla suriyalı qaçqın bütün dünyaya yayılardı.

Avropa İttifaqı (Aİ) da antitürk kampaniyasının aparıcı iştirakçılarındandır. Brüssel Ankaradan əməliyyatı dərhal dayandırmağı tələb etmişdir. Aİ-nin nümayəndələri iddia edirlər ki, guya Türkiyənin Suriyanın şimal-şərqində yaratmağı planlaşdırdığı təhlükəsizlik zonası qaçqınların vətənə qayıtması məsələsində beynəlxalq standartlara uyğun olmayacaq. Aİ həmçinin Türkiyəni Suriyanın şimal-şərqində təhlükəsizlik zonasının inşasına maddi yardım göstərməməklə hədələmişdir.

Eyni zamanda Belçika, Fransa, Almaniya, Polşa və Böyük Britaniya Türkiyənin başlatdığı yeni antiterror əməliyyatını pisləyərək Suriyanın şimalında cərəyan edən hadisələri müzakirə etmək üçün BMT Təhlükəsizlik Şurasının növbədənkənar iclasını çağırmağı tələb etmişdir.

Suriya xalqının yaşadığı faciəni müşahidəçi kimi seyr edən bir sıra ərəb ölkələri də qərbli patronlarından geri qalmaq istəməmişdir. Onların tələbi ilə sabah Ərəb Dövlətləri Liqası Suriyanın şimalında yaranmış vəziyyəti müzakirə edəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyanın şərqində səngərlənmiş terrorçulara yönəlik əməliyyatı pisləyənlərə sərt reaksiya vermişdir: "Bizim kürd qardaşlarımızla problemimiz yoxdur. Problemimiz terrorçu təşkilatlarladır. Biz indi oradakı kürd qardaşlarımızla deyil, terrorçu təşkilatla mübarizə aparırıq... Kobanidən ölkəmizə gəlmiş 300 min kürd hələ də qonaq kimi yaşayır. Gəlin əvvəlcə bunu danışaq. Bunu niyə danışmırıq? Amerika bunu görməz, Aİ bunu görməz... 3 milyon suriyalıya da öz torpaqlarında yaşamaq üçün yardım edirik. Dünyada hansı ölkə bunu etdi? Heç kim. Görəsən, bizi tənqid edən ərəb və Avropa ölkələri neçə suriyalıya qapısını açdı?" Türkiyə lideri Aİ ölkələrinə xəbərdarlıq da etdi: "Ey Avropa İttifaqı, özünə gəl. Bizim indiki əməliyyatımızı işğal kimi dəyərləndirməyə çalışsanız, işimiz asan olar: qapıları açıb 3,6 milyon qaçqını sizə göndərərik".

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Polşa vətəndaşının adı Azərbaycan XİN-in arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Polşa Respublikasının vətəndaşı, "Glob-Press" agentliyinin baş redaktoru Vlodimej Kjijanovski Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məktubunda Vlodimej Kjijanovski Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyə, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bəyan edir. O, işğal edilmiş ərazilərə sözügedən səfəri ilə heç bir halda ölkəmizin ərazi bütövlüyü və suverenliyini şübhə altına almaq niyyətində olmadığını bildirir. Həmçinin müraciətində o, səfərin törədə biləcəyi nəticələr barədə məlumatsız olduğunu və gələcəkdə bu cür qanunsuz səfərdən çəkinəcəyini qeyd edir.

Polşa vətəndaşının müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında**
**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN: 1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **04.11.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12.11.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **13.11.2019-cu il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi inzibati binada xidməti istifadədə olan Mitsubishi Elevators Asiya KO şirkətinin istehsalı olan GPQ3L1 markalı P1 liftin normal fəaliyyət göstərməsi üçün Kabinə üstü elektrik paylayıcı platanın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 15 oktyabr 2019-cu il saat 15:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nazirlik üçün dəftərxana mallarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 15 oktyabr 2019-cu il saat 15:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85.**

***Tender komissiyası***

# "Şans++2" ani lotereyasının şərtləri barədə məlumat

AZƏRLOTEREYA

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti lotereya həvəskarlarını nəzərə alaraq, mütəmadi olaraq yeni-yeni layihələr hazırlayıb lotereya iştirakçılarının ixtiyarına verir.




**"Azərlotereya" ASC tərəfindən keçirilən "ŞANS++2" ani lotereyasının oyun qaydaları:** lotereya biletlərinin üzərində yerləşən üstüörtülü **"ŞANS 1", "ŞANS 2", "ŞANS 3"** və "oyun xətləri"nin qoruyucu səthini pozmaq lazımdır. **"ŞANS 1", "ŞANS 2"** və ya **"ŞANS 3"** zonalarında yazılan rəqəm "oyun xətləri"nin üəzrində olan rəqəmlərdən biri ilə üst-üstə düşərsə, bilet həmin xətdə göstərilən məbləği qazanmış olur. Bilet bir neçə xətt üzrə uduşlu olarsa, uduşlar cəmlənir. Örtülü zonalarda olan rəqəmlərin hər hansı başqa kombinasiyası biletin uduşsuz olduğunu göstərir.

| Uduşların məbləği (manatla) | 10 faiz dərəcə ilə vergi tutulduqdan sonra ödənilən məbləğ (manatla) | Uduşlu biletlərin sayı (ədədlə) | Uduşların ümumi məbləği (manatla) |
|---|---|---|---|
| 3,00 | 3,00 | 380 000 | 1 140 000 |
| 5,22 | 5,00 | 160 000 | 835 200 |
| 10,78 | 10,00 | 70 000 | 754 600 |
| 20,00 | 18,30 | 10 000 | 200 000 |
| 50,00 | 45,30 | 4 000 | 200 000 |
| 100,00 | 90,30 | 500 | 50 000 |
| 500,00 | 450,30 | 100 | 50 000 |
| 1000,00 | 900,30 | 60 | 60 000 |
| **5 000,00** | **4 500,30** | **12** | **60 000** |
| **10 000,00** | **9 000,30** | **6** | **60 000** |
| **25 000,00** | **22 500,30** | **4** | **100 000** |
| **50 000,00** | **45 000,30** | **1** | **50 000** |
| **75 000,00** | **67 500,30** | **1** | **75 000** |

**Satışa buraxılmış lotereya biletlərinin ümumi sayı 2 000 000 (2 milyon) ədəddir.** **"ŞANS++2"** ani lotereyasında uduşlu lotereya biletlərinin "Azərlotereya" ASC tərəfindən qəbulu lotereya başlandığı tarixdən başlayır və 3 (üç) il ərzində davam edir. Uduş "Azərlotereya" ASC tərəfindən uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilir (ödənilir). Lotereyanın başa çatdığı tarix 01.12.2021-ci il.

2 000 (iki min) manatadək olan uduşlar lotereya biletlərinin satış məntəqələri tərəfindən, 2 000 (iki min) manat və daha böyük məbləğlər Bakı şəhəri, Təbriz küçəsi, 79 ünvanında "Azərlotereya" ASC tərəfindən ödənilir. "Azərlotereya" ASC-nin internet ünvanı www.azerlotereya.com. **Lotereya biletinin üst tərəfində əks olunan "Pozmaq olmaz" yazısı pozulduğu halda bilet etibarsız sayılır və həmin bilet üzrə uduş ödənilmir.**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 101.5-ci maddəsinə əsasən 01 yanvar 2017-ci il tarixindən etibarən idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən (Azərbaycan Respublikasının hüdudlarından kənarda təşkil edilən mərc oyunlarından, yarışlardan və müsabiqələrdən əldə edilən nağd pul vəsaiti istisna olmaqla) 10 faiz dərəcə ilə vergi tutulur.

Lotereya Azərbaycan Respublikasının ərazisini əhatə edir.

**"ŞANS++2"** ani lotereyası 14.11.2018-ci il tarixdə AR MBNP tərəfindən qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi 155.

Bunlardan xüsusi olaraq ani lotereyaları qeyd etmək lazımdır. Cəmiyyət tərəfindən təşkil olunan ani lotereyalar artıq bir ənənəyə çevrilmiş və lotereya həvəskarları arasında xüsusi maraq və rəğbət qazanmışdır. "Azərlotereya" ASC-nin layihəsi olan "Şans++2" ani lotereyasının şərtləri və oynanılma qaydası haqqında məlumatı sizə təqdim edirik.

"Şans++2" ani lotereya biletinin qiyməti 3 (üç) manat, ümumi tiraj isə 2 milyon ədəd təşkil edir. Lotereyanın uduş fondunun oynanılma qaydası: lotereya biletinin üzərində yerləşən üstüörtülü "Şans 1", "Şans 2", "Şans 3" və "oyun xətləri"nin qoruyucu səthini pozmaq lazımdır. "Şans 1", "Şans 2" və ya "Şans 3" zonalarında yazılan rəqəm "oyun xətləri"nin üzərində olan rəqəmlərdən biri ilə üst-üstə düşərsə, bilet həmin xətdə göstərilən məbləği udmuş olur. Bilet bir neçə xətt üzrə uduşlu olarsa, uduşlar cəmlənir.

"Şans++2" ani lotereyasında irili-xırdalı minlərlə pul mükafatları lotereya iştirakçılarının yolunu gözləyir. Həmçinin "Şans++2" ani lotereyasında 60 ədəd 1000 manat, 12 ədəd 5000 manat, 6 ədəd 10 000, 4 ədəd 25 000, 1 ədəd 50 000 və 1 ədəd 75 000 manat pul mükafatı şanslı qalibini gözləyir.

Azərbaycan Respublikasının ərazisində "Azərlotereya" ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilər.

"Azərlotereya" ASC hər bir lotereya iştirakçısına uğurlar arzulayır.

Lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

***Sizin "Azərlotereya"***

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən təşviqat materialları və çap məhsullarının satın alınması ilə əlaqədar keçirilmiş açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Açıq tenderin nəticələri haqqında Tender komissiyasının qərarına əsasən, "VANHCUSDE" MMC qalib elan edilmiş və müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Pedaqoji Universitetinin mətbəə xərcləri işlərinin yerinə yetirilməsi üzrə keçirilən kotirovka sorğusunun qalibi **"İnci group of companies" MMC** elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə 11 may 2019-cu il tarixində elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Evim Tekstil" MMC tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin kollektivi iş yoldaşları Cavanşir Zeynalova anası

**MİNAYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əhməd Nurməmmədova qardaşı

**VİDADİ NURMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8965
Sifariş 3359
Qiyməti 40 qəpik